20 avqust 2021 №62 (1839) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

# Qədim Qarabağın yenilənən siması

## Beş kənd və bir qəsəbənin yenidən qurulması üzrə müsabiqəyə yekun vurulub

Şəlvə kəndi, Laçın rayonu







Xudafərin qəsəbəsi, Cəbrayıl rayonu





Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Silahlı Qüvvələri otuz ilə yaxın sürən işğala son qoyaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdikdən sonra yaşayış məntəqələrinin dirçəldilməsi və iri-miqyaslı bərpa-quruculuq işləri qarşıda duran əsas vəzifədir.

Azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli sərəncamına əsasən, Əlaqələndirmə Qərargahı, İdarələrarası Mərkəz və müvafiq sahələr üzrə işçi qrupları yaradılıb. Əlaqələndirmə Qərargahının nəzdində Şəhərsalma məsələləri üzrə İşçi qrupu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi ilə fəaliyyət göstərir. Şəhərsalma məsələləri üzrə İşçi qrupunun 1 iyul tarixində keçirilən iclasında "Qədim Qarabağın yenilənən siması" adlı açıq müsabiqənin keçirilməsi barədə qərar qəbul olunmuşdu.

Müsabiqədə iştirak üçün layihələr 31 iyul tarixinədək Dövlət Şəhərsalma və Arxitektura Komitəsində qəbul olunub.

Komitədən verilən məlumata görə, bərpa-quruculuq işlərinin sistemli şəkildə aparılması, ölkə memarlarının və şəhərsalma mütəxəssislərinin Qarabağda yenidənqurma proseslərində iştirakının təmin edilməsi məqsədilə keçirilən "Qədim Qarabağın yenilənən siması" adlı müsabiqəyə yekun vurulub. Məlumatda bildirilir ki, indiki mərhələdə 5 kənd (Sarıcalı – Ağdam; Şəlvə – Laçın; Horadiz – Füzuli; Böyük Mərcanlı – Cəbrayıl; Zar – Kəlbəcər) və 1 qəsəbəni (Xudafərin – Cəbrayıl) əhatə edən müsabiqənin hədəfi eyni zamanda gənc memar və layihəçilər arasında istedadların müəyyən edilməsi və onların yanaşmalarının öyrənilməsi, eləcə də təqdim olunan layihələrdə qeyri-standart konsepsiyaların axtarışı idi. Münsiflər heyətinin iclasında müsabiqənin şərtlərinə cavab verən 21 layihədən ən yaxşıları müəyyən edilib.

Münsiflər heyətinin qərarına əsasən, təqdim olunan layihələrdən Ağdam rayonunun Sarıcalı, Laçın rayonunun Şəlvə kəndləri ilə bağlı 1-ci, 2-ci və 3-cü yerlər üzrə qaliblər seçilib. Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi və Xudafərin qəsəbəsi üzrə 1 layihə 2-ci yerə, 2 layihə isə 3-cü yerə layiq görülüb.

davamı səh. 3-də

## Azərbaycan Koreya şirkətlərini azad olunmuş ərazilərdəki layihələrə dəvət edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident qeyd edib ki, Koreya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə iştirak edirlər, müxtəlif layihələri həyata keçirirlər: "Əlbəttə, əminəm ki, gələcəkdə iqtisadi-ticari əlaqələrimizin həcmi daha da artacaq. Biz Koreya şirkətlərini azad edilmiş torpaqlarda icra olunacaq layihələrə dəvət etmişik. Mən artıq dəfələrlə demişdim ki, bu layihələrdə Azərbaycan üçün dost olan ölkələrin şirkətləri iştirak edəcəklər. Görüləcək işlərin həcmi çox böyükdür".

səh. 2

## Britaniyalı siyasətçi BBC-də ölkəmizə səfər təəssüratından danışıb

Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin sabiq sədri Səccad Kərim "BBC Manchester" radiosuna müsahibəsində Azərbaycana səfərindən bəhs edib.

Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən bildirilib.

Azərbaycan həqiqətlərini öz gözləri ilə görmək və işğaldan azad edilmiş əraziləri ziyarət etmək üçün ölkəmizə səfər etdiyini bildirən S.Kərim müsahibəsində deyib ki, hazırda Cənubi Qafqaz bölgəsində gedən müsbət dəyişikliklərə beynəlxalq ictimaiyyət öz töhfəsini verməlidir. Britaniyalı siyasətçi Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərində böyük dağıntıların, ətraf mühit problemlərinin olduğuna, Zəngilan ərazisindən keçən Oxçuçayın zəhərli tullantılarla çirkləndirildiyinə, belə problemlərin qlobal ekoloji proseslərə təsirinə diqqəti cəlb edib.

Səccad Kərim hazırda Azərbaycan tərəfinin həmin ərazilərdə intensiv şəkildə quruculuq-bərpa və abadlıq işlərinə başlamasını Cənubi Qafqaz bölgəsi üçün önəmli hadisə adlandırıb. Azərbaycanda bölgənin inkişafına güclü inamın olduğunu vurğulayan britaniyalı siyasətçi yeni səfəri zamanı daha böyük dəyişiklikləri görəcəyinə ümidini ifadə edib.

## Ayrılığın sonu varmış...

Avqustun 19-da bir qrup Şuşa sakininin doğma şəhərə səfərləri təşkil olunub. Otuzillik həsrətdən sonra işğaldan azad edilən Şuşaya – mədəniyyət paytaxtımız Şuşaya ayaq basan sakinlər əvvəlcə öz evlərini ziyarət edib, xatirələrini jurnalistlərlə bölüşüblər.

Şuşalılar bu günü onlara yaşatdıqları üçün müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə, qüdrətli Ordumuza minnətdarlıqlarını ifadə edib, tezliklə öz doğma torpaqlarına əbədi yaşamaq üçün geri dönəcəkləri günü səbirsizliklə gözlədiklərini vurğulayıblar.

səh. 2

## Orta əsr Ağsu şəhərini üzə çıxarmış alim

"Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun təşkilatçılığı ilə "Azərbaycan arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin rolu" adlı kitabın təqdimatı keçirilib. Kitabda ötən il tanınmış arxeoloq, tarix elmləri doktoru, professor Qafar Cəbiyevin 70 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən keçirilmiş beynəlxalq onlayn konfransın materialları toplanıb.

səh. 3

## 120 yaşlı Xan – ruhu da, səsi də azad yurdundadır



Avqustun 20-si Azərbaycan muğam sənətinin böyük ustadı, məşhur xanəndə, Xalq artisti Xan Şuşinskinin (1901–1979) anadan olmasının 120 ili tamam olur. Xan Şuşinski (İsfəndiyar Aslan oğlu Cavanşirov) muğamlarımızın bənzərsiz ifaçısı olmaqla yanaşı, "Şuşanın dağları", "Məndən gen gəzmə", "Ay gözəl" kimi dillər əzbəri olan mahnı və təsniflərin bəstələyib.

Ustad xanəndə İslam Abdullayevin tələbəsi olan İsfəndiyar Cavanşirov Xan Şuşinski adını təsadüfən qazanmayıb. Hər kəs anadan olanda ona ad verilir və nadir insanlar olur ki, onlar həyatda ad qazanırlar. Xan Şuşinski hələ gənc yaşlarından ecazkar səsi, ifası ilə muğam sənətinin Xanı olduğunu sübuta yetirmişdi.

Sənətkarın vəfatından 13 il sonra doğma yurdu, səsi ilə dağlarına, Cıdır düzünə səs saldığı Şuşa yağı düşmən tərəfindən işğal edildi. Günə gün 28 il 6 ay sürən bu işğal dövründə Xanın ruhu sərgərdan idi, səsi Şuşadan havalanacağı günü gözləyirdi.

Bu gün Xan Şuşinskinin yurdu artıq azaddır. Xanəndənin 100 illik yubileyini də, 110 illik yubileyini də Şuşasız qarşılamışdıq. Bu gün ustadın 120 yaşı tamam olur və ruhu da, səsi də azad yurdunda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşadadır...

## Böyük Zəfər münasibətilə sərgi

Azərbaycan Rəssamlar İttifaqı noyabr ayında rəşadətli Azərbaycan Ordusunun Qələbəsinə həsr edilmiş sərgi keçirəcək. Sərgidə rəngkarlıq, qrafika, heykəltəraşlıq, metal, xalça və rəssamlığın digər növlərinə yer ayrılacaq.

İştirak etmək istəyənlər əsərlərini oktyabrın 25-dən 30-dək Azərbaycan Rəssamlar İttifaqına təqdim etməlidirlər. Münsiflər heyəti noyabrın 1-dən 5-dək sərgiyə təqdim olunan əsərlərə baxış keçirəcək.

İttifaq rəssamları sərgidə iştirak etməyə dəvət edir.

## Milli Xalça Muzeyinin Şuşa filialı ən müasir texnologiyalarla təchiz olunacaq



Azərbaycan xalçaçılıq sənəti sahəsində dünyanın aparıcı ölkələrindən biridir. 2010-cu ildə xalça sənətimiz UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınıb. Dünyada bu sahə üzrə ilk ixtisaslaşmış muzey müəssisəsi də ölkəmizdə təşkil edilib.

Müsahibimiz Azərbaycan Milli Xalça Muzeyinin direktoru, Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi Şirin Məlikovadır.

*– Şirin xanım, istərdim əvvəlcə dövlət başçısının sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı görülən işlərə nəzər salaq.*

– Dövlət Proqramı təsdiq edildikdən sonra muzey olaraq bir sıra mühüm layihələr gerçəkləşdirdik. Proqramda da bildirildiyi kimi, muzeyimiz dünya muzeyləri ilə əlaqələr qurmalı və orada qorunan Azərbaycan xalçalarının siyahısını tərtib etməli, atribusiya məsələsini qaldırmalı, sərgilər təşkil etməli və kataloqlar çap etməlidir. Bu, bir istiqamətdir. İkinci istiqamət isə Milli Xalça Muzeyinə Azərbaycana məxsus olan qədim xalçaları gətirməkdir. Hər iki istiqamətdə işlərimiz davam edir.

Hazırda qarşımda iki çox gözəl tərtibatlı kataloq görürsünüz. Bu kataloqlardan biri Türkiyədə çap olunub. Türk və İslam Əsərləri Muzeyində Azərbaycana aid 130-dan artıq xalça qorunub saxlanılır. Onların sırasında XVII əsrə aid Qarabağda toxunmuş "Əjdahalı" xalçaları da var. Bu xalçalar 40 ilə yaxındır muzeyin fondundan çıxarılmayıb. Hətta çoxunun fotoları belə yox idi. Ərazisi böyük olmayan bu muzeydə əsasən asma xalçalar nümayiş olunur. Ümumilikdə "Qafqaz xalçası" adı altında muzeydə saxlanılan və əslində bizə aid olan xalçalar isə, demək olar ki, nümayiş etdirilməyib. Biz muzeylə əlaqə saxladıq, yüksək keyfiyyətdə fotolar çəkildi, ciddi bərpaya ehtiyacı olan 12 xalça konservasiya edildi və ilk dəfə muzeyin ekspozisiyasında nümayiş olundu.

Ötən il martın 13-də İstanbulda sərgi açıldı və kataloqun təqdimatı keçirildi. Kataloqa həmin muzeydə qorunan 100-ə yaxın xalça atribusiyası da daxil edilmişdi. Xalçaların texniki göstəriciləri, bədii xüsusiyyətləri əks olundu. Bu, böyük zəhmət tələb edən iş idi və muzeyimizin mütəxəssisləri iki il türkiyəli həmkarları ilə birgə çalışdılar. Hazırda davam edən sərgi beynəlxalq xalça dünyasında 2020-ci ilin ən önəmli hadisəsi kimi diqqət çəkdi. Dünyanın aparıcı xalça dərgiləri bu haqda geniş məqalələr yayımladılar. Xalça üzrə ekspertlər Azərbaycan dövlətinin bu layihəni həyata keçirmək üçün ayırdığı vəsaitə görə bizə təşəkkür edirdilər. Çünki məhz bu layihə sayəsində beynəlxalq ekspertlər xalçalarımızla tanış ola bildilər. Gələcəkdə sərginin bir qismini bizim muzeydə də nümayiş etdirməyi və kataloqun Azərbaycan və ingilis dillərində versiyasını təqdim etməyi düşünürük.

davamı səh. 4-də



## "Dubay EXPO" sərgisində ölkəmiz də iştirak edəcək

Dünyanın ən böyük sərgisi olan EXPO-ya bu il Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhəri ev sahibliyi edəcək. EXPO-nun əsas dünya sərgisi beş ildən bir təşkil edilir, həmçinin 2-3 ildən bir ixtisaslaşmış EXPO sərgiləri keçirilir. Dünya sərgisinə ev sahibliyi etmək Olimpiya Oyunları qədər nüfuzlu hadisə sayılır.

səh. 8

"4.4 Qısa Tamaşalar Festivalı"na əsər qəbulu davam edir

səh. 5




Şəhid sərhədçilərin xatirəsinə və əfsanəyə çevrilmiş AN-2 təyyarəsinə abidə qoyulub

səh. 4



Müslüm Maqomayevə həsr olunmuş yaradıcılıq gecəsi

səh. 5

# Mətbuat sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə

Prezident İlham Əliyev avqustun 18-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin – AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Əhməd oğlu Aslanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Azərbaycan Respublikasında mətbuat sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.

Qeyd edək ki, avqustun 18-də Aslan Aslanovun 70 yaşı tamam olub. O, 1975-ci ildən mətbuatda çalışır. 2002-ci ildən AZƏRTAC-a rəhbərlik edir. Əməkdar mədəniyyət işçisidir.

Tanınmış jurnalisti yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

# Qarabağ yüksək texnologiyalar zonasına çevrilir

## İspan nəşri işğaldan azad edilmiş ərazilərdəki layihələr haqqında

İspaniyanın iqtisadi, maliyyə və siyasi informasiyalar üzrə ixtisaslaşan "EL BOLETNN" qəzetinin onlayn nəşrində "Azərbaycan işğaldan azad edilmiş ərazilərini yüksək texnologiyalar zonasına çevirir" sərlövhəli məqalə dərc edilib.

Nəşrdə Vətən müharibəsi bitdikdən sonra "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı" Dövlət Proqramının hazırlandığı bildirilir, bu məqsədlə müəyyən vəsaitin ayrıldığı qeyd olunur.

Diqqətə çatdırılır ki, beş ildən sonra investisiyalar xarici sərmayələr hesabına artım perspektivi ilə 5,2 milyard dollara çatacaq, investorlar arasında Avropa Yenidənqurma və İnkişaf Bankı və Dünya Bankı da var.

Nəşr oxucularına logistika əlaqələrinin bərpası ilə bağlı planlaşdırılan layihələr, həmçinin azad olunmuş ərazilərdə inşa olunacaq üç hava limanı barədə də məlumat verir. Qeyd olunur ki, işğaldan azad edilmiş ərazilərdə logistika əlaqələrinin qurulması və inkişafı üçün yaxşı imkanlar var: "Azərbaycan Hökumətinin əsas məqsədlərindən biri də bu ərazilərdə "yaşıl enerji zonası"nın yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasıdır. Yaşıl energetika zonasının yaradılması prosesi artıq başlayıb".

Diqqətə çatdırılır ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində şəhərlər və kəndlər dünyanın ən qabaqcıl texnologiyaları tətbiq olunmaqla "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulacaq. İlk "ağıllı kənd" Zəngilan rayonunda yaradılır. Bu layihələr Azərbaycanın işğaldan azad edilmiş şəhər və kəndlərini bölgənin ən inkişaf etmiş ərazilərindən birinə çevirmək niyyətini nümayiş etdirir.

# Xalq şairi Mirvarid Dilbazinin xatirəsi anılıb

Avqustun 19-da Azərbaycanın ilk qadın Xalq şairi Mirvarid Dilbazinin (1912–2001) anadan olmasının 109 illiyi münasibətilə "Azərkitab" kitab mərkəzində tədbir keçirilib.




Tədbiri giriş sözü ilə "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri, şair-publisist Güllü Eldar Tomarlı açaraq Mirvarid Dilbazi yaradıcılığının Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzusunda xüsusi yer tutduğunu və gənc nəslə örnək olduğunu vurğulayıb.

Tədbirdə ictimai birliyin və "Mişov" mədəniyyət dərnəyinin birgə təşəbbüsü və dəstəyi ilə ərsəyə gələn nəşr – Aqşin Ağkəmərlinin "Təbrizdən Təbrizə" hekayələr kitabı təqdim olunub. Nəşrin ön söz müəllifi Xalq şairi Nəriman Həsənzadə kitabın oxucuların rəğbətini qazanacağını əminliklə vurğulayıb. O, Xalq şairi Mirvarid Dilbazini xatırlayaraq xatirələrini bölüşüb. Mirvarid Dilbazi adına yaradılmış ictimai birliyə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən tarix elmləri doktoru Əkrəm Rəhimli, tənqidçi, şair Əsəd Cahangir, tədqiqatçı-yazar Ramiz Göyüşov, şairlər İlham Qazaxlı, Südabə İrəvanlı, Zeynəb Kazımova, Zərəngiz Dəmirçi Qayalı və başqaları çıxış edərək Mirvarid Dilbazinin yaradıcılığından danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

# Azərbaycan Koreya şirkətlərini azad olunmuş ərazilərdəki layihələrə dəvət edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 19-da Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



Nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, qonaqların Bakıda keçirəcəyi görüşlər Koreya-Azərbaycan əlaqələrinin inkişafına xidmət edəcək. "Bizim ölkələrimizi dostluq əlaqələri birləşdirir və müstəqillik dövründə Koreya-Azərbaycan əlaqələri daim uğurla inkişaf etmişdir. Yüksəksəviyyəli qarşılıqlı rəsmi səfərlər həyata keçirilmişdir və siyasi əlaqələrimizin inkişafı üçün çox önəmli addımlar atılmışdır", – deyə dövlət başçısı vurğulayıb.

Prezident qeyd edib ki, Koreya şirkətləri Azərbaycanda müxtəlif sahələrdə iştirak edirlər, müxtəlif layihələri həyata keçirirlər: "Əlbəttə, əminəm ki, gələcəkdə iqtisadi-ticari əlaqələrimizin həcmi daha da artacaq. Biz Koreya şirkətlərini azad edilmiş torpaqlarda icra olunacaq layihələrə dəvət etmişik. Mən artıq dəfələrlə demişdim ki, bu layihələrdə Azərbaycan üçün dost olan ölkələrin şirkətləri iştirak edəcəklər. Görüləcək işlərin həcmi çox böyükdür. Biz 10 min kvadratkilometr ərazisi olan yerləri yenidən qurmalıyıq".

Dövlət başçısı parlamentlərarası əlaqələrin inkişafı üçün də yaxşı imkanlar olduğunu və Azərbaycan Milli Məclisində keçiriləń görüşlərin nəticələrinin müsbət olacağına əminliyini bildirib.

Koreya Respublikası Milli Assambleyasının sədri Park Byonq-Soq ölkəsinin başçısı Mun Ce-inin salamlarını Azərbaycan Prezidentinə çatdırıb. O deyib: "Sizin prezidentlik fəaliyyətiniz dövründə Azərbaycanda həm siyasi sabitlik hökm sürmüşdür, həm də Azərbaycan iqtisadi cəhətdən inkişaf etmişdir. Mən çox şadam ki, Sizi belə bir mühüm ildə ziyarət etdim. Çünki bu il sizin müstəqilliyinizin 30 ili tamam olur. Həmçinin növbəti il Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Mən səkkiz il əvvəl Azərbaycana Milli Assambleyanın sədr müavini vəzifəsində gəlmişdim və Sizinlə görüşmüşdüm. Bu səkkiz il ərzində Bakı çox dəyişib, inkişaf edib. Canlı şahidiyəm ki, Bakını tanımaq olmur. Bakı çox inkişaf edib. Bizim əlaqələrimizin potensialı hazırkı inkişaf səviyyəsindən daha artıqdır".

Prezident İlham Əliyev Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirib, onun salamlarını Koreya dövlət başçısına çatdırmağı xahiş edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Ayrılığın sonu varmış...

## Şuşa sakinləri otuzillik həsrətdən sonra doğma şəhərdə

Avqustun 19-da bir qrup Şuşa sakininin doğma şəhərə səfərləri təşkil olunub. Otuzillik həsrətdən sonra işğaldan azad edilən Şuşaya – mədəniyyət paytaxtımız Şuşaya ayaq basan sakinlər əvvəlcə öz evlərini ziyarət edib, xatirələrini jurnalistlərlə bölüşüblər.





Şuşalılar bu günü onlara yaşatdıqları üçün müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə, qüdrətli Ordumuza minnətdarlıqlarını ifadə edib, tezliklə öz doğma torpaqlarına əbədi yaşamaq üçün geri dönəcəkləri günü səbirsizliklə gözlədiklərini vurğulayıblar.

"Bundan sonra Şuşanın qapısı şuşalılara açıqdır" – bu sözləri şəhər sakinləri ilə görüş zamanı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə Heyətinin sədri Məftun Abbasov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, altı ay bundan qabaqkı Şuşa ilə bugünkü Şuşa arasında böyük fərq var, abadlıq işləri aparılır, bir sıra iaşə obyektləri tikilir. Prezident tərəfindən məktəb və məscidin təməli atılıb və tezliklə bunların tikintisinə başlanılacaq: "Şuşada ilk olaraq Prezidentin xüsusi nümayəndəliyinin, Şuşa şəhəri Dövlət Qoruğu İdarəsinin yaranması, Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalanması bunların hamısının əyani sübutudur. Cənab Prezident Şuşaya xüsusi önəm verir. Artıq "Zəfər yolu"nda da tamamlanma işləri gedir".

Şuşanın partlamamış silah-sursat və minalardan təmizləndiyini də vurğulayan M.Abbasov yaxın vaxtlarda bu işlərin yekunlaşacağını deyib: "Bu sadaladığım amillər Şuşaya gəlməkdə əsas maneələr idi. Bu maneələr indi aradan qaldırılır. Bundan sonra Şuşanın qapısı şuşalılara açıqdır. Hər zaman bura səfərlər təşkil olunacaq. Biz bu səfərlərdə əsasən yaşlı nəslin nümayəndələrinə üstünlük verəcək, sonra yavaş-yavaş cavan nəslin nümayəndələrinin də səfərlərini təşkil edəcəyik".

Səfər zamanı şuşalılar şəhərdə aparılan quruculuq, bərpa işləri ilə tanış olublar. Sakinlər şəhərdə yerləşən erməni vandalları tərəfindən dağıdılmış tarixi, dini və mədəni abidələri ziyarət edib, Cıdır düzündə olublar. Şuşalılar doğma şəhərdə Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini də ziyarət edib, namaz qılıb, dualar oxuyublar.

Təəssüratımızı sözlə ifadə etmək mümkün deyil. Bunlar insanı kövrəldən hisslərdir. Şükürlər olsun ki, 30 ildən sonra doğma torpağımıza ayaq basdıq. Bu sözləri işğaldan azad edilən Şuşaya ayaq basan şəhər sakini Sofiya Salahova deyib.

"Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. Prezidentimiz var olsun ki, bizə bu gözəl hissləri yaşatdı. Sevincimizin həddi-hüdudu yoxdur. Bütün təşkilatçılar sağ olsunlar ki, bizi buraya gətirdilər. O gün olsun ki, uşaqlarımız tezliklə bu torpaqlarda böyüsünlər", - deyə o vurğulayıb.

# Məşhur amerikalı kamança ifaçısı diplomla təltif olunub

XX əsrin 90-cı illərindən etibarən Azərbaycanın muğam sənəti dünya dinləyicilərinin maraq dairəsində xüsusi yer qazanıb. Muğamlarımızın sorağını alan bəzi əcnəbi ölkə musiqiçiləri bu sənətlə peşəkar səviyyədə maraqlanmağa başladılar. Onlardan biri də ABŞ vətəndaşı Cefri Verbokdur.

Cefri Verbok Amerika Muğam Cəmiyyətinin prezidenti, Azərbaycan muğamının tədqiqatçısı və kamança ifaçısıdır. O, hazırda vətənində və müxtəlif xarici ölkələrdə Azərbaycan muğamının fəal təbliğatçısıdır.



Bu günlərdə Cefri Verbok Beynəlxalq Multikultural Şəbəkənin, "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyinin qonağı olub. Azərbaycan mədəniyyətinin, muğamının fəal əcnəbi təbliğatçısı kimi Cefri Verbok Beynəlxalq Multikultural Şəbəkənin "Fəxri səfiri" diplomuna layiq görülüb.

Cefri Verbok səmimi ab-havada təşkil olunan görüş üçün Beynəlxalq Multikultural Şəbəkənin rəhbəri, "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri Xəyalə Məmmədovaya və onun komandasına təşəkkürünü bildirib.

# İmtahan intizarında son mərhələ

Avqustun 20-də ali təhsil müəssisələrinə qəbul olunmaq üçün ixtisas seçimi başlanır. Dövlət İmtahan Mərkəzi bununla bağlı abituriyentlərə müraciət edib.

Müraciətdə qeyd olunur ki, ali təhsil müəssisələrinə qəbul olunmaq üçün ixtisas seçimi avqustun 20-dən 30-dək internet vasitəsilə aparılacaq. Bu müddət ərzində müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin qarşısında öz ixtisas seçiminə bir daha nəzər salmaq, seçimini dəqiqləşdirmək və təsdiqləmək vəzifəsi durur.

İxtisas seçimi DİM-in rəsmi saytı vasitəsilə elektron qaydada aparılır və texniki cəhətdən bu prosesi həyata keçirmək çox sadədir. Proqram təminatı elə qurulub ki, sizin səhv etmək ehtimalınız yoxdur və ərizəni yadda saxla düyməsini basdıqda səhv və onun mahiyyəti barədə xəbərdarlıq edilir.

Hər il olduğu kimi, bu il də DİM-in nəşr etdiyi "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər abituriyentlərə kömək olacaq. Bu kitabçalarda müsabiqə şərtləri, ixtisas qrupları üzrə plan yerləri, müvafiq qruplar üzrə müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanması və s. məlumatlar əksini tapıb. "Abituriyent" jurnalının 4 saylı buraxılışında isə "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisaslar, plan yerləri, jurnalın xüsusi buraxılışında isə ötən ilin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid balları dərc olunub.

Abituriyentlər həmçinin DİM-in regional bölmələrində, eləcə də paytaxtda Qərbi Kaspi, Azərbaycan, Bakı Biznes, Odlar Yurdu universitetlərində abituriyentlərə ixtisas seçimi ilə əlaqədar kömək etmək məqsədilə yaradılmış və ödənişsiz əsaslarla fəaliyyət göstərən "Abituriyent məsləhət mərkəzləri"nə müraciət edə bilərlər.

2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər isə avqustun 19-da qabiliyyət imtahanı veriblər. Bu mərhələdə III ixtisas qrupu üzrə test imtahanı verərək müsabiqə şərtini ödəyən abituriyentlər iştirak ediblər. İmtahanda iştirak üçün 760 abituriyent qeydiyyatdan keçib.

İmtahan Bakı şəhərində və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan və Xaçmaz şəhərlərində təşkil olunub.



İmtahanın başlanmasından əvvəl Mətbuat Şurasının və KİV nümayəndələrinin iştirakı ilə təklif olunan 210-dan çox mövzu arasından 3 mövzu seçilib və videobağlantı vasitəsilə imtahan mərkəzlərinə çatdırılıb. Abituriyentlər təqdim olunmuş mövzulardan biri üzrə inşa (esse) yazıblar. Nəticələr yaxın günlərdə elan olunacaq.

Avqustun 20-də isə DİM tərəfindən ali təhsil müəssisələrinin bakalavriatura səviyyəsinə, o cümlədən ümumi (9 illik) və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul üçün növbəti qabiliyyət imtahanları keçiriləcək. Abituriyentlər islamşünaslıq (ali), bədən tərbiyəsi (9 və 11 illik), musiqi (ali və 9 illik) istiqamətləri üzrə qabiliyyət imtahanı verəcəklər.

# Pakistan universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi açılacaq

Pakistanın Müasir Dillər Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzi açılacaq. Bu barədə məsələ Azərbaycan Dillər Universiteti (ADU) rektorunun köməkçisi Anar Rəhimov Pakistanın Müasir Dillər Universitetinin rektoru Məhəmməd Cəfər ilə görüşündə müzakirə olunub.

Anar Rəhimov ADU-da yenicə açılmış Pakistan mədəniyyət mərkəzi haqqında məlumat verib və rektor Kamal Abdullanın təşəbbüsü ilə Müasir Dillər Universitetində də Azərbaycan dili və mədəniyyəti mərkəzini açmaq və qardaş Pakistanda "Azərbaycan multikulturalizmi" fənnini tədris etmək niyyətləri olduğunu diqqətə çatdırıb. Belə layihələrin ölkələrimiz arasında elm və təhsil əlaqələrinin inkişafına töhfə verəcəyini qeyd edib.

Məhəmməd Cəfər öz növbəsində Azərbaycan-Pakistan münasibətlərindən bəhs edib, iki ölkənin bir-birini hər zaman dəstəklədiyini bildirib. Rektor Müasir Dillər Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasını və "Azərbaycan multikulturalizmi" fənninin tədris edilməsi planını məmnunluqla qarşılayıb, mərkəzin açılması ilə bağlı universitet rəhbərliyi tərəfindən lazımi kömək göstəriləcəyini əminliklə ifadə edib.

Azərbaycan dili və mədəniyyəti mərkəzinin 2021-ci ilin sentyabr ayında açılması planlaşdırılır.

əvvəli səh. 1-də

Kəlbəcər rayonunun Zar kəndi üzrə isə yalnız 1 layihə 2-ci yerə layiq olub.

Xatırladaq ki, 1-ci yerin sahibinə 5000 manat, 2-ci yerin sahibinə 3000 manat, 3-cü yerin sahibinə isə 2000 manat pul mükafatı, digər iştirakçılara isə diplomlar təqdim ediləcək. Layihələr yaşayış məntəqələrinin mövcud vəziyyətinin analizi, tarixi kontekstlə əlaqələri, orijinallıq, simvolizm, bütövlük, həmçinin uğurlu və peşəkar bədii-qrafik və memarlıq həlləri, vizual təqdimatlar üzrə qiymətləndirilib.

# Qədim Qarabağın yenilənən siması

## Beş kənd və bir qəsəbənin yenidən qurulması üzrə müsabiqəyə yekun vurulub



Müsabiqənin münsiflər heyətində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov, Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, "Bakı Abadlıq Xidməti" MMC-nin rəhbəri Bünyad Qasımov və memar Abdul Hüseynov yer alıb.

Qeyd edək ki, müsabiqədə əsasən gənc mütəxəssislər iştirak edib və bir sıra maraqlı layihə həlləri irəli sürülüb. Qalib layihələrdə dayanıqlı həyat şəraitinin yaradılmasına, müasir memarlıq həllərinin milli memarlıqla sintezinə, yaşayış məntəqələrinin gələcək texnoloji inkişafının həlledici istiqamətlərinə dair təkliflər əks olunub. Müsabiqədə qalib gələn layihələr kəndlərdə aparılacaq bərpa-quruculuq işlərində nəzərə alınacaq.

Seçilmiş layihələr və onların müəllifləri haqqında daha ətraflı məlumatla www.bizimqarabagh.az saytında tanış olmaq mümkündür.

# Orta əsr Ağsu şəhərini üzə çıxarmış alim

## Arxeoloq Qafar Cəbiyev haqqında kitabın təqdimatı

Avqustun 17-də "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğunun təşkilatçılığı ilə "Azərbaycan arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin rolu" adlı kitabın təqdimatı keçirilib. Kitabda ötən il tanınmış arxeoloq, tarix elmləri doktoru, professor Qafar Cəbiyevin 70 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən keçirilmiş beynəlxalq onlayn konfransın materialları toplanıb.




Təqdimatı giriş sözü ilə qoruğun direktoru, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli açıb. Bildirib ki, professor Qafar Cəbiyev uzun illərdir ki, Qəbələ, Ağsu, İsmayıllı, Kürdəmir və Şamaxı rayonlarında aparılan arxeoloji tədqiqatlara rəhbərlik edib. Həmin tədqiqatlar nəticəsində Antik və Orta əsrlər tarixinin bir sıra məsələlərinə elmi cəhətdən aydınlıq gətirilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış "Orta əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu da məhz alimin tədqiqatlarının nəticəsidir. Professor Qafar Cəbiyev yazılı mənbələrdə adı çəkilən, lakin yeri bilinməyən Mehrəvan şəhərinin qalıqlarını üzə çıxarıb, orada genişmiqyaslı tədqiqat işi aparıb. Fariz Xəlilli professor Qafar Cəbiyevin arxeologiya elmi sahəsində məktəbin əsasını qoyduğunu qeyd edib, onun yetirmələrinin müxtəlif ekspedisiyalarda səmərəli şəkildə işlədiyini bildirib.

Təqdimat mərasimində Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sektor müdiri Mahir Qəhrəmanov, "Qəbələ" Dövlət Tarix-Bədii Qoruğunun direktoru Zahir Kərimov, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Araz Manaflı, Ağsu Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Sevda Dəmirova, Gəncə Dövlət Universitetinin dosenti Cavid Bağırzadə, Milli Azərbaycan Tarixi Muzeyi, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və digər elmi müəssisələrin əməkdaşları iştirak ediblər.

Mahir Qəhrəmanov çıxış edərək mədəniyyət naziri Anar Kərimovun və Dövlət Xidmətinin rəisi Azad Cəfərlinin salam və təbriklərini çatdırıb, alimin elmi nailiyyətlərinin və nəşrlərinin yüksək qiymətləndirildiyini qeyd edib. O, professor Qafar Cəbiyevə Mədəniyyət Nazirliyinin "Fəxri fərman"ını təqdim edib.

Sonda professor Qafar Cəbiyev Azərbaycanda arxeologiya elminin inkişafı sahəsində xidmətlərini yüksək dəyərləndirdiklərinə görə təşəkkür edib, kitabı tədbir iştirakçıları üçün imzalayıb.

# ABŞ səfiri Əlincəqalaya çıxıb

## Naxçıvanla tanışlıq diplomatda zəngin təəssürat yaradıb

Gözəl bir diyar olan Naxçıvana mənim ilk səfərimdir və muxtar respublikaya gəlişimdən məmnunluq duyuram. Səfərin yüksək səviyyədə təşkilinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə öz minnətdarlığımı bildirirəm. İki gün ərzində burada müxtəlif rəsmi nümayəndələr, elm adamları, qadın sahibkarlar, eyni zamanda, Amerika Birləşmiş Ştatları proqramlarının məzunları ilə görüşmək imkanım oldu.

Amerika Birləşmiş Ştatlarının (ABŞ) ölkəmizdəki səfiri Örl Litzenberqer bu sözləri avqustun 18-də Naxçıvanda, Möminə xatın türbəsinin önündə media nümayəndələrinə müsahibəsində deyib.

Diplomat bildirib ki, Azərbaycan kimi gözəl ölkəni gəzib görmək istəyir və uzun müddət idi ki, Naxçıvana gəlmək arzusunda idi: "Təəssüf ki, koronavirus infeksiyasının yayılması ilə əlaqədar olaraq Bakıdan kənara çıxmağım mümkün olmurdu. Lakin hazırda Azərbaycanda milyonlarla insan vaksinasiya olunduğuna görə səyahət etmək mümkündür". Diplomat qeyd edib ki, bu ilin iyul ayında ABŞ-ın Oklahoma ştatının qubernatorunu Gəncə və Zəngilana səfərdə müşayiət edib: "Bir həftə sonra Şəki və Qaxda oldum. Bu dəfə isə gözəl Naxçıvandayam".

Həyat yoldaşı ilə birlikdə Naxçıvanın məşhur turistik yerlərinə baş çəkdiyini qeyd edən Örl Litzenberqer Duzdağ Fizioterapiya Mərkəzi, Xan sarayı və Naxçıvanqalada olduğunu deyib: "Burada müşahidə etdiyimiz qonaqpərvərlik bir daha onu göstərir ki, Naxçıvan beynəlxalq turistləri qəbul etmək üçün ideal bir məkandır".



ABŞ səfiri muxtar respublikaya səfərinin son günündə Azərbaycan xalqının yenilməzlik simvolu Əlincəqala ilə tanış olub. Diplomata tarixi abidə barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2014-cü ildə imzaladığı sərəncamına əsasən, "Əlincəqala" tarixi abidəsi bərpa olunub və muzey yaradılıb. Tarixi qaynaqlar əsas götürülərək dünya əhəmiyyətli abidə olan Əlincəqalanın bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından böyük əhəmiyyətə malikdir. Qalada məskunlaşmış insanların yaşayışını və döyüş sənətini özündə əks etdirən maddi mədəniyyət nümunələrinin "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində nümayiş olunması isə bu tarix haqqında dolğun təsəvvür yaradır.

Diqqətə çatdırılıb ki, Əlincəqala muxtar respublikanın Culfa rayonunda, Əlincəçayın sağ sahilində yerləşir. Bəzi tarixi mənbələrə görə, qala 2 min il əvvəl, digər mənbələrə görə, III-IV əsrlərdə tikilib.

Əlinəcəqala ilə tanışlıq ABŞ səfirində xoş təəssürat yaradıb. Avqustun 18-də diplomatın muxtar respublikaya səfəri başa çatıb.

## Bölgələrdən xəbərlər

### Zəfər yolunun fədailəri




Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Mahmud Əhmədovun Ağstafada yerləşən ev-muzeyini və xatirəsinə tikilən bulaq kompleksini ziyarət ediblər.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Şabran Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Zəfər yolunun fədailəri" adlı tədbir keçirilib. Tədbirdə Şabran Xalq teatrının aktyoru Nurlan Fərhadlının ifasında "Azərbaycan əsgəri, Zəfərin mübarək!" şeiri səsləndirilib, şəhidlərimizə həsr olunan videoçarx təqdim edilib.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon MKS-nin Kəpənəkçi kənd kitabxana filialında I Qarabağ müharibəsi şəhidi Mais Məmmədovun ailəsi ilə görüş təşkil olunub. Şəhidin anası Güldanə Məmmədova oğlunun uşaqlıq illərindən, eyni zamanda müharibə zamanı göstərdiyi qəhrəmanlıqlardan söz açıb.

# Poeziya dünyasının dühası



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Oxuculara xidmət şöbəsinin təşkilat etdiyi dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Poeziya dünyasının dühası" adlı onlayn şeir qiraəti müsabiqəsi başa çatıb. MKS-nin direktoru Saməddin Nəsirov müsabiqənin qaliblərini təbrik edib. Qaliblər fəxri fərman və hədiyyələrlə təltif olunublar.

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin Kolayır kənd kitabxana filialı "Nizami Gəncəvinin qəzəllərindən" adlı videoçarx hazırlayıb.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ rayon Mədəniyyət Mərkəzinin Bum qəsəbə Mədəniyyət evi Nizami Gəncəvinin 880 illiyinə həsr olunan videoçarx hazırlayıb.






Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon MKS-nin təşkil etdiyi "İncitək sözlər seç, dünya bəzənsin" adlı onlayn şeir qiraəti müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. İyul ayında təşkil edilən müsabiqəyə 31 nəfər oxucu müraciət edib. Onlardan Hürü Məmmədova I, Aytən Süleymanova II, Gülay Şabanova isə III yerlərə layiq görülüblər.

# İclaslar, görüşlər, sərgilər...



Ağcabədi Regional Mədəniyyət İdarəsi Yaqub Məmmədov adına Ağcabədi rayon Mədəniyyət Mərkəzində regional idarənin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəbləri rəhbərlərinin iştirakı ilə iclas keçirilib.

Regional idarənin rəisi Qalib Həsənov yaxın gələcəkdə idarənin əhatə etdiyi rayonlarda fəaliyyət göstərən mədəniyyət müəssisələrində köklü islahatların aparılacağını vurğulayıb, rəhbərliyin qarşıya qoyduğu tapşırıqların vaxtında, dəqiq, şəffaf və məsuliyyətlə yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər S.Vurğun adına Folklor klubunda Şirvan və Şəki şəhər mədəniyyət mərkəzlərinin dostluq görüşü keçirilib. Şirvan şəhər Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə baş tutan görüş görkəmli müğənni, SSRİ Xalq artisti Müslüm Maqomayevin (1942-2008) doğum günü (17 avqust) münasibətilə gerçəkləşib. Şəki Mədəniyyət Mərkəzinin direktoru Ağaəli Cəlilov və Şirvan Mədəniyyət Mərkəzinin direktoru Nəmidə Quluzadə ecazkar səsi ilə dünyanı fəth edən müğənninin yaradıcılığından söz açıblar. Musiqili proqramla davam edən görüşdə təqdim olunan bir-birindən maraqlı musiqi və rəqs nömrələri alqışlarla qarşılanıb.

Ağstafa Regional Mədəniyyət İdarəsi və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, şair İsa Cavadoğlunun 90 illik yubileyi qeyd olunub. Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Ağstafa Regional Mədəniyyət İdarəsinin Tovuz rayonu üzrə nümayəndəsi Adil Həsənov və başqaları çıxış edərək yubilyarı təbrik ediblər.



Sabirabad Regional Mədəniyyət İdarəsi Şirvan Dövlət Rəsm Qalereyası həvəskar uşaq və yeniyetmələrin iştirakı ilə "Mənim natürmortum" adlı sərgi və ustad dərsi təşkil edib. Ustad dərsində qalereyanın direktoru Çinarə Vəliyeva şagirdlərə natürmort janrının işlənmə texnikası haqqında məlumat verib. Sərgidə natürmort janrında işlənmiş 20-dən artıq əsər nümayiş olunub.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzində gənc könüllülərin iştirakı ilə "Narkomaniya, narkobiznes və ona qarşı mübarizə" mövzusunda tədbir keçirilib.

Qazax rayon Mədəniyyət Mərkəzində 18 avqust – Sərhəd Qoşunları Günü münasibətilə "Müqəddəs sərhədlərimiz etibarlı əllərdədir" adlı dəyirmi masa keçirilib. Tədbirdə bir qrup mədəniyyət işçisi və I Qarabağ müharibəsi veteranı Qurban Qurbanov iştirak edib. Qazax Dövlət Rəsm Qalereyasında isə əlamətdar günlə əlaqədar "Vətən sərhəddən başlayır" adlı sərgi təşkil olunub.

Şəmkir Regional Mədəniyyət İdarəsi Göygöl rayon Mərkəzi uşaq kitabxanasında balaca oxucular üçün "nağıl saatı" təşkil olunub.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Nizami adına mədəniyyət və istirahət parkında səyyar kitabxana xidməti təşkil edib. MKS-nin Alpan kənd kitabxanası "Zəfər bayramın mübarək" başlığı altında tədbir keçirib. MKS-nin Əski İqriq kənd kitabxana filialında isə "Qalib ölkənin qəhrəman Ordusu" mövzusunda tədbir keçirilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Dövlət Rəsm Qalereyasında gənc rəssamların müxtəlif mövzularda çəkilmiş rəsm əsərlərindən ibarət sərgi təşkil edilib.



Bərdə rayon MKS-nin Hüseynbəyli kənd kitabxana filialında "Gənclər və kitabxana" adlı görüş təşkil edilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Tərtər rayon MKS ulu öndər Heydər Əliyev adına mədəniyyət və istirahət parkında "Mən oxudum, səndə oxu" adlı səyyar kitabxana qutuları təşkil edib. Maraqlı üslublarda hazırlanmış qutularda müxtəlif mövzulu kitablar, jurnallar, broşür və qəzetlər oxucuların istifadəsinə verilib. Layihənin məqsədi sakinlərin, xüsusilə yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, oxucu marağının artırılması, mütaliə mədəniyyətinin daha da yüksəldilməsidir.

Hazırladı: N.MƏMMƏDLİ

əvvəli səh. 1-də

Dövlət Proqramı çərçivəsində həyata keçirdiyimiz daha bir layihə Rusiya Etnoqrafiya Muzeyi ilə əməkdaşlıqdır. Muzeydə Azərbaycana aid 3000-ə yaxın eksponat var. Maraqlıdır ki, onların daimi ekspozisiyasında bəzi eksponatlar nümayiş olunsa da, bu kolleksiya heç vaxt öyrənilməyib. Biz bu məsələni qaldırdıq. Onların bütün fondlarında işlədik və ən maraqlı nümunələri seçdik. Burada qorunan Azərbaycana aid xovlu və xovsuz xalça, həmçinin parça, tikmə, geyim, zərgərlik və metal nümunələrinə düzgün atribusiyanın verilməsi üçün bu nümunələrdən ibarət sərgi və kataloq hazırladıq. Bu ilin fevralında açılan sərgidə ümumilikdə 120 əşya nümayiş olundu. May ayına qədər davam edən sərgi müxtəlif tədbirlərlə yadda qaldı. Rusiyalı həmkarlarımız bu layihədə bizə yalnız xalça kolleksiyasını tədqiq etməyi məsləhət bilsələr də, düşündük ki, bu imkan və fürsət bir də nə zaman ələ düşəcək. Fondun, demək olar ki, bütün kolleksiyasını tədqiq etməyə başladıq. Keçmiş sovet respublikalarından ilk Azərbaycan bu işi həyata keçirdi. Ümumiyyətlə, Dövlət Proqramı üzrə qarşıda görüləcək çox işlərimiz var.

*– Rusiya Dövlət Ermitaj Muzeyi ilə də əlaqələriniz genişlənir...*

– Bu, bizim üçün böyük nailiyyətdir. İlk dəfə olaraq Azərbaycan muzeyində tətbiq edilən bir layihə Ermitaj tərəfindən qəbul olunaraq tətbiq edilir. Bu, inklüziv layihədir. Xüsusi qayğıya ehtiyacı olan insanlar üçün mədəni sərvətlərin əlçatan olması işinin yaxşılaşdırılması şərtləri önəmli yer tutur. İki muzeyin bu sahədə təcrübəsini birləşdirən "Pazırık xalçası" inklüziv layihəsidir. Bundan əlavə, ölkəmizin ilk inklüziv muzeyi olan Milli Xalça Muzeyində artıq görmə qabiliyyəti məhdud insanlar üçün eksponatlar barədə mətnlər ikinci mərtəbədə Brayl əlifbası ilə təqdim edilir. Burada xovlu və xovsuz texnologiyanın birlikdə tətbiqi ilə üzərində həndəsi və nəbati elementlər, zoomorf və antropomorf təsvirlər olan kiçikölçülü xalça nümunələri nümayiş etdirilir. Görmə qabiliyyəti məhdud insanlar həmin xalça növlərinin toxunuş müxtəlifliyini taktil (toxunma) üsulla duya bilirlər.

# Milli Xalça Muzeyinin Şuşa filialı ən müasir texnologiyalarla təchiz olunacaq

## Şirin Məlikova: "Dövlət Proqramına əsasən bir sıra layihələr həyata keçirmişik, qarşıda görüləcək çox işlərimiz var"



*– Təkcə xalça nümunələri araşdırılır, yoxsa digər toxuculuq məhsullarına da diqqət ayıra bilirsiniz?*

– Xalçaların konservasiyası ilə bərabər, muzeyin xüsusi ənənəvi texnologiyalar şöbəsində peşəkar toxucular işləyir. Çalışırıq muzeyimizdə xovsuz texnologiyaları da bərpa edək. Çünki xovsuz texnologiyaların əksəriyyəti unudulub: çiy palaz, şəddə, zili və s. Hazırda muzeydə bu texnologiyanı bərpa etmişik və toxucularımız bu xalçaları toxumaqla yanaşı, kurslarda gənclərə də öyrədilir.

*– Hazırda Tatarıstanda "Xalça sənəti – mənaların təkamülü"adı altında Azərbaycan xalçalarının sərgisi nümayiş etdirilir. Sərginin adı maraqlıdır...*

– Bu sərgi ötən il planlaşdırılırdı, lakin pandemiya səbəbindən təxirə salındı. Tatarıstan Respublikasının (Rusiya Federasiyası) "Kazan Kremli" Muzey-Qoruğunda sərgimiz davam edir və sentyabrın 5-də başa çatacaq. Mənaların təkamülü anlayışı özündə xüsusi bir baxışı simvoliza edir. Klassik Azərbaycan xalçaları ilə yanaşı, müasir rəssam Çingiz Babayevin qədim sənətkarlığı yeni yollarla inkişaf etdirən xalça nümunələri bu sərgidə bir-birini tamamlayır. O, xalçanın harmoniyasını pozmadan yeni ornamentlər kəşf edir. Xalça sənəti sənətkarlıq işi olmaqla bərabər, həm də bir incəsənətdir, elmdir. Biz daim rəssamlarla işləyirik. Xalq rəssamı Eldar Mikayılzadə, Əməkdar rəssam Aydın Rəcəbov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dosenti, xalçaçı-rəssam Məmmədhüseyn Hüseynovla sıx əlaqədəyik. Kazandakı mühazirəmdə çoxsaylı insanlar iştirak edirdi və mühazirədən sonra bizə çoxlu suallar ünvanlandı. Sərgilər milli sənət nümunələrinin təbliği və Azərbaycan haqqında təsəvvür yaratmaq baxımından çox önəmlidir.

*– Mədəniyyət paytaxtımız Şuşada muzeyin filialı ilə bağlı fikirlərinizi öyrənmək istərdik...*

– Filial bərpa olunacaq. Bilirsiniz ki, hazırda Şuşada bərpa-quruculuq işləri gedir. Ermənilər tərəfindən, demək olar ki, bütün tarixi binalarımız dağıdılıb. Onların bərpası vaxt aparacaq. Heydər Əliyev Fondu bu işlərə mütəxəssisləri cəlb edib. Muzeyimizin Şuşa filialı öz işini orada davam etdirəcək, ancaq daha böyük məkanda, müasir ekspozisiya ilə. Bizdə olduğu kimi, bütün yeni texnologiyalar Şuşa muzeyində də tətbiq olunacaq. Bizim tekstil kolleksiyamız möhtəşəm şəkildə nümayiş etdiriləcək. Qarabağın və Şuşanın ən gözəl muzeylərindən biri də Xalça Muzeyi olacaq. Bu tarixən də belə olub. Şuşada vaxtilə Mehmandarovların imarətində yerləşən muzeyin ziyarətçiləri bol olub.

Yeri gəlmişkən, 44 günlük Vətən müharibəsi zamanı bir xeyriyyəçi tərəfindən bizə hədiyyə edilən XVIII əsrə aid Qarabağ xalçası haqqında da söz açmaq istərdim. Bu xalça zənginliyi və müxtəlifliyi ilə seçilən "Əjdahalı" nümunəsinə aiddir. Uzun erməni kolleksiyaçının əlində olub. Sonra bu xalça italyan kolleksiyaçı tərəfindən alınıb. Müxtəlif kataloqlara daxil edilmiş bu şah əsəri ölkəmizə qaytara bildik və hazırda muzeyimizdə sərgilənir. Onu da qeyd edim ki, son illər bir neçə xalçamız ölkəmizə qaytarılıb. Bunlardan bir neçəsi Heydər Əliyev Fondu tərəfindən, bir qismini italyan kolleksiyaçı, bir neçəsi isə Mədəniyyət Nazirliyinin dəstəyi ilə alınıb muzeyə təhvil verilib. Dövlətimiz tərəfindən bizə verilən dəstəyə görə öz təşəkkürümü bildirirəm. Xeyriyyəçilərə də minnətdaram ki, bizə dəstək olurlar.

*– Bu yaxınlarda Latviyaya səfəriniz olmuşdu...*

Onun bir neçə maraqlı xalçası var ki, Latviyada toxunub. Bu xalçalara baxanda tam Azərbaycan xalçasını görə bilməsək də, bizim xalçaların izləri hiss olunur. Onları Azərbaycan xalçalarından ilhamlanmış əsərlər adlandırmaq olar. Xalçanın, kompozisiyanın strukturu, göllərin yerləşməsi, haşiyələr, harmoniya Azərbaycan xalçasını xatırladır. Qafqaz Kustar Komitəsinin arxivi Tbilisidə saxlanılır. Latviyada görüşlərimdə üçtərəfli elmi araşdırmaların vacibliyinə də diqqət çəkdim.

*– Qarşıda hansı layihələr gözlənilir?*

– Çox layihələr nəzərdə tutmuşuq. Amma pandemiya səbəbindən hansının keçiriləcəyini dəqiq bilmirik. Qarşıdakı əsas layihəmiz haqqında söz açmaq istərdim. Oktyabr ayında Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşırıq. Otaqda onun eskiz və portret xalçalarının nümunə-



– Latviyanın Gulbene şəhərində "Divi Juliji" (İki Yulius) IV Beynəlxalq İncəsənət Festivalı keçirilirdi. Vaxtilə Qafqaz Kustar Komitəsinin rəhbəri olmuş latviyalı Yulius Straumenin Qafqazdakı fəaliyyəti bizim üçün maraqlıdır. O, Şuşada dərs deyib, Azərbaycanı qarış-qarış gəzib, qədim xalçaları toplayıb ornament və çeşnilərini hazırlayıb. Riqaya dönəndən sonra Azərbaycana məxsus texnologiyanı orada öyrətməyə başlayıb.

lərini görürsünüz. Siz gəlməzdən əvvəl onun yaradıcılıq irsi ilə bağlı məqalə üzərində işləyirdim. Həmçinin bizim kolleksiyada olan xalçaları ilə bağlı kitab nəşr olunacaq. Bundan əlavə, yubiley tədbiri çərçivəsində təşkil ediləcək sərgidə həm bizim muzeydə, həm də digər muzeylərimizdə qorunan xalçaları sərgilənəcək. Bu il ölkəmizdə "Nizami ili"dir və biz ekspozisiyaya Kamil Əliyevin "Nizami" xalçasını da əlavə etdik. O, əsasən, yeni üslubda portret xalçaları yaradırdı. Görüləcək işlərdən biri də yubiley çərçivəsində təşkil ediləcək beynəlxalq konfransdır. Latviya, Avstriya və digər ölkələrdən iştirakçılar olacaq. Pandemiya qaydalarına əsasən konfransın bir hissəsi onlayn, bir hissəsi isə adi qaydada keçiriləcək. Oktyabrda Kamil Əliyevin yubileyi ilə bağlı sərgi və konfrans keçirməyi nəzərdə tutmuşuq.

*– Şirin xanım, İCOM-un Bakıda nəzərdə tutulan konfransı bu il keçiriləcəkmi?*

– Konfrans ötən il pandemiya üzündən təxirə salınmışdı. Çox istərdim ki, bu konfrans keçirilsin. Çünki Vətən müharibəsində Qələbəmizdən sonra Beynəlxalq Muzeylər Şurası kimi nüfuzlu qurumun nümayəndələrinin ölkəmizə səfəri əhəmiyyətli olar. Qarabağımız bərpa olunur, muzeylərimiz də bərpa ediləcək. Biz dəfələrlə İCOM-da talan olunmuş kolleksiyalarımızla bağlı məsələlər qaldırmışıq. Danışıqların nəticəsinin bir hissəsi ondan ibarətdir ki, İCOM Katibliyi ilə razılaşıb sentyabr ayında hərbi münaqişələr zamanı kolleksiyaların evakuasiya məsələsi üzrə treninqlərin keçirilməsini nəzərdə tutmuşuq. Bura sənədləşmə, praktiki sahələr üzrə treninq və s. daxildir. Bu treninqin vəsaitini İCOM Katibliyi ödəyəcək. İCOM Etnoqrafiya Muzeyləri və Kolleksiyaları üçün Beynəlxalq Komitəsinin (İCME), Muzey İdarəçiliyi üzrə Beynəlxalq Komitənin (İNTERCOM) konfransı oktyabr ayına planlaşdırılır. Yenə də deyirəm, layihələrimiz pandemiya şərtlərinə bağlıdır.

*– "Nizami ili" çərçivəsində nə kimi layihələr nəzərdə tutulub?*

– Dövlət başçısı tərəfindən 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunması ilə əlaqədar Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin təşkilatçılığı ilə xalça eskizi müsabiqəsi keçirildi. Həmçinin filologiya üzrə elmlər doktoru, professor Seyfəddin Rzasoyun təqdimatında "Nizami Gəncəvi yaradıcılığında folklormifoloji ənənələr" mövzusunda mühazirə təşkil olundu. Bu silsilədən layihələrimiz ilin sonunadək davam edəcək.

**Lalə AZƏRİ**

# Cıdır düzündə skripkada "Ay Laçın" səslənib

Xəbər verdiyimiz kimi, avqustun 17-də Diaspora İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə müxtəlif ölkələrdən gəlmiş Azərbaycan diaspor nümayəndələrinin Şuşaya növbəti səfəri gerçəkləşib.

Mədəniyyət paytaxtımızı ziyarət edənlər arasında Çexiyanın Plzen Konservatoriyasında təhsil alan gənc azərbaycanlı skripkaçı Canel Nəcəfli də olub. Ən böyük arzusu Şuşada, Cıdır düzündə skripkada ifa etmək olan Canel, nəhayət, bu arzusuna çatıb.

Komitədən verilən məlumata görə, müxtəlif beynəlxalq mükafatlara layiq görülmüş istedadlı skripkaçı Cıdır düzündə skripkada "Ay Laçın" xalq mahnısını ifa edib. Canel Nəcəflinin ifası diaspor üzvlərinə xoş təsir bağışlayıb.

Qeyd edək ki, Canel Nəcəfli hazırda Bakı Musiqi Akademiyasında Xalq artisti Zəhra Quliyevanın sinfində qiyabi və Çexiyada Plzen Konservatoriyasında professor Roman Fedçukun sinfində əyani təhsilini davam etdirir.

# Şəhid sərhədçilərin xatirəsinə və AN-2 təyyarəsinə abidə qoyulub

Avqustun 18-də Dövlət Sərhəd Xidmətinin (DSX) Aviasiya Qüvvələrində Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinin əbədiləşdirilməsi məqsədilə ucaldılmış abidənin açılış mərasimi keçirilib.

Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Əfqan Nağıyev çıxış edərək mərasimin Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 102-ci ildönümünə təsadüf etdiyini, sərhədçilərin builki peşə bayramını müzəffər ölkənin qalib əsgərləri olaraq ən yüksək əhval-ruhiyyə ilə qarşıladıqlarını diqqətə çatdırıb. Vətən müharibəsində Ali Baş Komandanın bütün döyüş tapşırıqlarının sərhədçilər tərəfindən uğurla icra edildiyi, ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirildiyi qeyd olunub.

Silahlı Qüvvələrimizin 44 günlük zəfər yürüşündə müasir müharibə aparma təcrübəsində yenilik kimi tarixə düşmüş AN-2 təyyarələrinin mo-





difikasiya olunmaqla tətbiqi, müasir hərbi texnologiyalar, kəşfiyyat və zərbəendirici pilotsuz uçuş aparatlarının sinxronlaşdırılmış istifadəsi nəticəsində Qarabağ səmalarına hakim olmağımız qürurla vurğulanıb. Bildirilib ki, Dövlət Sərhəd Xidmətinin "Harop", "Quzğun" pilotsuz uçuş aparatlarının peşəkar tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli hədəfləri, çoxsaylı canlı qüvvəsi zərərsizləşdirilib.

Qeyd edilib ki, torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında DSX-nin 47 hərbi qulluqçusu həlak olub. Onların arasında pilot zabitlər – mayor Abbas Qasımov və baş leytenant Xalid Gözəlov da var. DSX-nin Aviasiya Qüvvələrində şəhidlərimizin xatirəsinə və Vətən müharibəsinin əfsanəsinə çevrilmiş AN-2 təyyarəsinə abidə ucaldılmasının şəhidlərimizin rəşadət salnaməsinə ehtiramın ifadəsi, döyüş qüdrətimizin təcəssümü olduğu vurğulanıb.

Tədbirdə Vətən müharibəsində şücaət və qəhrəmanlıq göstərdiklərinə, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan rayonları və Şuşa şəhərinin azad olunmasında fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif edilmiş sərhədçilərə orden və medallar təqdim olunub.

Qeyd edək ki, 18 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Qanuna əsasən, Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk sərhəd dəstəsi yaradılıb. Prezident Heydər Əliyevin 2000-ci il 16 avqust fərmanı ilə avqustun 18-i Azərbaycanda sərhəd mühafizəsinin yaranması – sərhədçilərin peşə bayramı kimi qeyd olunur.

# "İnkişaf üçün 5 il birlikdə"



"ASAN Könüllüləri" Təşkilatı və "Coca-Cola" şirkətinin əməkdaşlığının 5 illiyi qeyd olunub. Avqustun 18-də keçirilən "İnkişaf üçün 5 il birlikdə" adlı tədbirdə əməkdaşlıq çərçivəsində icra olunan layihələr haqqında ətraflı məlumat verilib və bu layihələrdən bəhs edən rəsm sərgisi təşkil olunub.

Tədbirdə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, "Coca-Cola" şirkətinin Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya direktoru Elşad Fərzəliyev, "ASAN Könüllüləri" Təşkilatının sədri Emiliya Bayramova, dövlət qurumları nümayəndələri, şirkət təmsilçiləri və könüllülər iştirak ediblər.

Elşad Fərzəliyev "ASAN Könüllüləri" ilə əməkdaşlıqdan danışıb, 2016-cı ildən etibarən ekoloji, sosial və humanitar layihələrin həyata keçirildiyini bildirib. Həmçinin Azərbaycanda qadınların məşğulluq potensialının gücləndirilməsinə, o cümlədən regionlarda yaşayan qadın və qızların məşğulluğunun təmin edilməsinə dəstək məqsədilə reallaşdırılan "AIM-W" layihəsi, COVİD-19 pandemiyası ilə mübarizəyə dəstək məqsədilə "ASAN Könüllüləri" Təşkilatı və "Coca-Cola" Fondu tərəfindən həyata keçirilən "Birlikdəyik" layihəsi barədə məlumat verilib.

Sonda mükafatlar təqdim olunub və sərgiyə baxış keçirilib.

# "Qarabağın bərpa, yenidənqurma və inkişafı" sərgisi keçiriləcək

Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərdən sonra ölkəmizin və xalqımızın qarşısında duran əsas vəzifə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləridir. Ölkə rəhbərliyi tərəfindən bu sahəyə göstərilən xüsusi diqqət və işğaldan azad edilmiş ərazilərin bərpasına ayrılan vəsaitin həcmi bölgənin dirçəlişinə mühüm zəmin yaradır.

Eyni zamanda işğaldan azad edilmiş ərazilərin təbii ehtiyatlarının zənginliyi və böyük iqtisadi potensiala malik olması xarici investorların da diqqətini cəlb edir. Bu prosesi təşviq etmək üçün 20-22 oktyabr 2021-ci il tarixində Bakı Expo Mərkəzində 1-ci Azərbaycan "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" (Rebuild Karabakh 2021) sərgisinin keçirilməsi nəzərdə tutulur.




Sərginin məqsədi müxtəlif ölkələrdən olan şirkətlərin Azərbaycanın Qarabağ bölgəsinin sürətli bərpasına töhfə verə biləcək unikal təcrübə, innovativ həll variantları və investisiya təkliflərini bir platformada nümayiş etdirməkdir. Sərgi həmçinin şirkətlərin və dövlət qurumlarının nümayəndələri arasında dialoq üçün ünsiyyət platforması yaradacaq.

Sərginin saytında verilən məlumata görə, "Rebuild Karabakh 2021" Azərbaycanda beynəlxalq sərgi və konqreslərin təşkilatçısı –"Caspian Event Organisers" (CEO) tərəfindən keçiriləcək. Sərgiyə rəsmi dəstək verən qurumlar: Qarabağ Dirçəliş Fondu, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu.

Sərgi çərçivəsində işğaldan azad edilmiş ərazilərin davamlı inkişafı ilə bağlı konfrans, ərazilərin bərpası haqqında beynəlxalq və yerli ekspertlərin təcrübə mübadiləsi, mədəni abidələrin bərpası, Qarabağ bölgəsinin turizm potensialı, Qarabağın enerji potensialı, şəhid və qazi ailələri üçün mikro biznes proqramları üzrə müzakirələr, startaplar müsabiqəsi, iştirakçı şirkətlər tərəfindən Qarabağın bərpası ilə əlaqədar layihə təqdimatları və digər tədbirlər nəzərdə tutulur.

# “Hər şey üçün sənə təşəkkür edirəm”

## Müslüm Maqomayevə həsr olunmuş yaradıcılıq gecəsi




Bakıda Rusiya İnformasiya-Mədəniyyət Mərkəzində (RİMM) SSRİ Xalq artisti Müslüm Maqomayevin 79 illiyinə həsr olunmuş gənc ifaçıların yaradıcılıq gecəsi keçirilib.

RİMM-də bildirilib ki, iştirakçılar konsertdən əvvəl Müslüm Maqomayevin həyat və yaradıcılıq yolundan bəhs edən “Hər şey üçün sənə təşəkkür edirəm” adlı fotosərgi ilə tanış olublar.

Gənclər təşkilatlarının, rusiyalı həmvətənlərin Azərbaycandakı təşkilatlarının nümayəndələri, Müslüm Maqomayevin yaradıcılığının pərəstişkarları gecənin qonaqları olublar.

Tədbirdə Müslüm Maqomayevin yaradıcılıq yolundan söz açılıb. Bildirilib ki, müğənni 20 yaşında, 1962-ci ildə Helsinkidə keçirilən Dünya Gənclər və Tələbələr Festivalında çıxışından sonra məşhurlaşıb. O, “Buxenvald harayı”nı ifa edib, bununla da dünyaya faşizmin dəhşətlərini xatırladıb. İstedadına və qaldırılan mövzunun aktuallığına görə festivalın laureatı olub. Elə həmin ildə Kreml Sarayının səhnəsində keçirilən Azərbaycan incəsənəti festivalında iştirakı müğənniyə ümumittifaq şöhrəti gətirib.

Gecədə sənətşünaslıq üzrə fəlsəfə doktoru, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının baş müəllimi Alyona İnyakinanın, akademiyanın tələbələri Emil İsmayılov, Nailə Xasıyeva, Baxar Məmmədova, Gülzar Hüseynovanın ifasında Müslüm Maqomayevin repertuarından əsərlər səslənib.

# Fotoqrafiyadan ekologiyaya kömək

Latviya Respublikasının Azərbaycandakı Səfirliyi “The Landmark” biznes mərkəzi, f3.7 birliyi və “PlatformART” təşkilatı ilə birgə “Landmark Rotunda Teras”da xeyriyyə auksionu təşkil edib.

Xeyriyyə auksionunda bu yaxınlarda Bakı Fotoqrafiya Evində “Defocused” adlı sərgidə nümayiş edilən fotolar təqdim olunub. Satışa çıxarılan fotolar 10 istedadlı gənc tərəfindən çəkilib.

Tədbirdə çıxış edən Latviya səfirliyinin əməkdaşı Viya Buşa bildirib ki, Latviya hər zaman Azərbaycanın müvafiq qurumları ilə birgə “Yaşıl enerji” layihələrinə böyük əhəmiyyət verir. Qeyd edilib ki, səfirlik ekoloji problemlərin həlli ilə bağlı fəaliyyət göstərən təşkilatlara yardım etmək istəyir.



Layihənin kuratoru Əməkdar rəssam Səbinə Şıxlinskaya bildirib ki, nümayiş olunan işlər təbiətin gözəlliyini əks etdirir, eyni zamanda ekoloji problemləri də qabardır, ətraf mühitin çirkləndiyini ön plana çəkir.

Rəssam qeyd edib ki, auksion xeyriyyə məqsədi daşıyır. Satılacaq fotolardan əldə edilən gəlir “Ecofront” qeyri-hökumət təşkilatının hesabına köçürüləcək. Təşkilat bu vəsait hesabına istifadə olunmuş batareyaları toplayaraq ətraf mühitin təmizlənməsinə öz töhfəsini verəcək.

“Bu tədbirdə kurator və istedadlı gənclərin gördükləri işləri dəstəkləyən bir şəxs kimi çıxış edirəm. Yeni karyera quran gəncləri lazımi təşkilatlarla tanış etmək və işlərinə köməklik göstərmək istəyirəm”, – deyə S.Şıxlinskaya bildirib.

# “4.4 Qısa Tamaşalar Festivalı”na tamaşa qəbulu davam edir

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Teatro.az sənət portalı Vətən müharibəsində qazandığımız tarixi Zəfəri səhnə əsərlərində yaşatmaq, eləcə də pandemiya dövrünün məlum reallıqları üzündən durğunlaşmış milli teatr prosesini canlandırmaq, teatr sənətçilərini yeni yaradıcı təşəbbüslərə təşviq etmək məqsədilə “4.4 Qısa Tamaşalar Festivalı”na tamaşa qəbulu elan edib.

Festival təkcə dövlət teatrlarını deyil, həmçinin özəl teatr kollektivlərini, müstəqil sənətçiləri əhatə etməklə, yeni istedadların aşkarlanmasına da zəmin yaratmaq məqsədi daşıyır.

Qaliblər peşəkar teatr xadimlərindən ibarət münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyən ediləcək. Mükafat fondu I, II və III yerlər üçün müvafiq olaraq 1500, 1000 və 750 manat nəzərdə tutulub.

Bir kollektiv yalnız bir tamaşa ilə müraciət edə bilər. Tamaşalara janr məhdudiyyəti qoyulmur. Tamaşaların xronometrajı 15 dəqiqədən artıq olmamalıdır. Təqdim edilən işlər film-tamaşa formatında da ola bilər. Tamaşaların videoyazısı və tamaşanın 30-60 saniyəlik treyleri müraciət forması ilə birlikdə 15 oktyabr 2021-ci il tarixindən gec olmayaraq 4.4festival@teatro.az elektron poçt ünvanına göndərilməlidir. Ətraflı məlumat üçün əlaqə vasitəsi: (+994 50) 660 20 25

# Musiqili Teatrın direktoru Tatarıstanda beynəlxalq konfransa qatılacaq

Tatarıstan Respublikası (Rusiya Federasiyası) Buinsk Dövlət Dram Teatrının nəzdində fəaliyyət göstərən Beynəlxalq Mədəniyyət Mərkəzi 23-30 avqust tarixində “Malikanə mədəniyyət məkanı: həyətdən salona” mövzusunda beynəlxalq konfrans keçirəcək.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev konfransda fəxri qonaq qismində iştirak edəcək.

Bir sıra beynəlxalq festivalların və müsabiqələrin münsiflər heyətində təmsil olunan rejissor türkdilli xalqların mədəniyyətinin də yaxınlaşması baxımından konfransın əhəmiyyətini yüksək qiymətləndirib. Bildirib ki, tədbir çərçivəsində Tatarıstanın peşəkar kollektivləri ilə tanışlıq, eləcə də müxtəlif ölkələrdən konfransa qatılan incəsənət xadimləri ilə görüşlər gələcəkdə daha sıx əlaqələrin qurulmasına töhfə verəcək.

# Seçim qarşısında polemika

## Qabil Quliyev: “Aktyorun yuvası səhnədir. Heç kimə yuvasının uçmasını arzulamazdım”

Bu gün təkcə bizdə yox, ümumən dünyada teatr özünün məşhur sualı, seçimi qarşısındadır: Olum, yoxsa ölüm? Bu söhbət özünü “Olum” deyənlər qütbünə şamil edənlər üçün olduğundan xeyli mətləblər adi həqiqətlərdə yenidən dilə gəldi. Özü də səhnə üçün ən çox darıxılan günlərdə, pandemiyalı ikinci teatr mövsümünün başa çatdığı dönəmdə.

Onunla ötən ay Lənkəran səfərimdə görüşüb, söhbət elədim. Azərbaycan teatrında bu gün “klassik aktyor məktəbi”nin barmaqla sayılacaq nümayəndələrindən biridir. Sərt və obyektiv adam, mükəmməl aktyordur. Üstəlik söhbətin nəbzini yaxşı tutan əsl nurani insandır. Bələdikələ, həmsöhbətim Xalq artisti, Lənkəran Dövlət Dram Teatrının aktyoru Qabil Quliyevdir.

– *Qabil müəllim, necəsiz?*

– Belə, pis deyiləm. Bircə teatr, səhnə üçün darıxmaq olmaya. Adamın arada bağrı yarılır.

– *Ən çox nə üçün darıxırsız?*

– Səhnə üçün, tamaşaçı nəfəsi üçün. Səhnənin ab-havası mənə həyat verir, yaşamaq səbəbimi bir daha göstərir. Adam öz yerini bilir. Baxın, quşun yuvasını uçurdursan, o, yuva axtarır, tapa bilməyəndə də ölür. Aktyorun da yuvası səhnədir və orada olmasa ölər. Mən heç kimə yuvasının uçmasını arzulamazdım.

– *Tərəf-müqabillərinizlə səhnədə qəribə, mistik bir rabitəniz var. Mənə maraqlıdır, onlar sizdən çəkinirlər, yoxsa cəsarətlə müqavimət göstərirlər?*

– Qorxanı da olur, cəsarətlisi də.

– *Siz daha çox hansını xoşlayırsız?*

– Hər ikisini (gülür). Yox, mənim cəsarətli aktyordan xoşum gəlir. Amma gərək qabda da nə isə ola da. Quru cəsarət boş qəhrəmanlıq arzusu kimidir. Səhnədə kiminlə oynamağından asılı olmayaraq, bütün gücünü səfərbər edib, ən adi, epizodik rolunda da aktyorluğunu göstərməlisən.

– *Uzun illərdir, teatr səhnəsindəsiniz. Özünüzü yetərincə realizə edib, milli teatr sənəti üçün sözünüzü dediniz-mi?*

– Həyat çox şirindir. 100 il yaşasan da, yenə yaşamaq istəyirsən. Sənətdə, səhnədə nə istəyirsən elə, neçə illər ömür sürürsən sür, sonda yenə yarımçıq qalırsan. Ümumən sənət ömrü heç vaxt tamamlanmır. Bu olarsa, sənət də, sənətkar da bitər. Bir də heç bir aktyor deyə bilməz ki, “Mən bəs qədər rollarımı oynamışam”. Bunu deyirsə, deməli, tükənib.

– *İki mövsümdür ki, Azərbaycan teatrı ilə tamaşaçı arasındakı birbaşa rabitə – yeni səhnədən ünsiyyət kəsilib. Məhz bu, zamanla bəzi qütblərdə “bizə teatr lazım deyil” fikrini yaratdı...*

– Yalandır. O sözü deyənlər sadəcə əsl sənət əsərinin təsirindən qorxurlar. Axı ən böyük güzgü teatr, sənətdir və orada hərə öz eybini də görür. O adamlar bundan qorxub elə fikirlər səsləndirirlər. Teatr böyük qüvvə, ideoloji tribunadır.

– *Teatr indi də o mövqeyindədir?*

– Əlbəttə. Teatrı məhz o mövqedən çıxarmaq, sapdırmaq üçün bu sözləri deyirlər. Çünki onlara canlı tribuna lazım deyil.

– *Yaxşı, onda teatr tamaşaçısını itirib, yoxsa statusunu?*

– Teatr statusunu saxlayıb, tamaşaçı teatrdan təcriddir. Bu işi pandemiya bir az da dərinləşdirdi. Teatr tamaşaçı ilə daim vəhdətdədir və tamaşaçı teatrı sevir, vallah, ona inanır. Teatr tamaşaçını həyata bağlayan, onda yaşamağa inam yaradan bir yerdir. O, tamaşaçını ümidsizlikdən çıxardır. Teatr cəmiyyəti narahat edən mövzuların kütləvi çözüm məkanıdır. Ona görə də daim bu mövqedən çıxış eləməlidir. Teatr mədhiyyəçi yox, tənqidçidir. Bu cür teatr yaşayacaq. Hələ heç nə itməyib və yaşamağa dəyər.

– *Belədirsə, biz onda daha teatral idik, yoxsa indi?*

– Burada köks ötürməyə məcburam. Deyim niyə. İllər əvvəl qonşumuz ruslara baxıb həsəd aparardıq. Onların gündəlik tələbat bölgüsündə teatr mütləq idi. Əslində, əsas etibarilə indi də elədir. Amma o vaxt biz gənc idik və daha parlaq arzularımız vardı. Təbii ki, o arzuların arasında bizim də tamaşaçıların kütləvi olaraq teatra axışması, səhnəni, sənəti sevməsi dururdu. Amma, təəssüf ki, bu da arzu olaraq qaldı. Yəqin bunun da özünün səbəbləri var. Buna rəğmən teatrı sevən müəyyən kütləni də inkar etmək olmaz.

– *Əslində, sizin təsvir etdiyiniz dövrü bu günlə müqayisə etmək də düzgün olmaz.*

– İcazənizlə, bu barədə illərdir hasil olan qənaətimi bölüşüm. Mesenat Hacı Zeynalabdin Tağıyev teatr binası tikdirdi, təhsil üçün xaricə saysız gənclər göndərdi və onlar mütəxəssislər kimi qayıtdılar. Yəni o, hər şeyi dövlətdən, o dövrün idarəetməsindən gözləmədi, özü nə isə etdi. İndi də düşünürəm ki, bütün sahələrdə, xüsusən mədəniyyətə, sənətə, teatra münasibətdə, sevgidə, təəssübdə Tağıyev kimi insanlara ehtiyac var. Nəzərə alsaq ki, ölkəmizdə kifayət qədər geniş imkanlara malik iş adamlarımız var.

– *İstəyiniz anlaşılandır. Bu gün dünyanın ən böyük teatrlarının bir çoxu məhz elə xeyriyyə təşkilatlarının, iri şirkətlərin ianələri ilə yaşayırlar.*

– Təbii, çünki sənətə, peşəkar sənətə, xüsusən də teatra daim dəstək olmalıdır. Fikrim yanlış anlaşılmasın. Mən demirəm ki, kimlərsə teatrı öhdəsinə götürüb maliyyələşdirsin.



Yox, teatr cəmiyyət üçün vacib və təsirli mexanizmdir, ondan bəhrələnmək lazımdır. Bu gün sağlam cəmiyyət, humanist toplum sənəti, teatrı sevir, yaşadır, onu gərəkli sayır. Yəni hər şeyi dövlətdən gözləmək olmaz.

– *Bu söhbətin bir ucu da teatrlarda peşəkar gənc kadrlara gedib çıxır. Ölkəmizdə aktyor, rejissor təhsili verən ali məktəb var, onun məzunları bir çox hallarda ya öz peşələrində qalmırlar, ya da bölgələrə getməkdənsə paytaxtda qalmağa üstünlük verirlər.*

– Elə də ümidsiz yanaşmaq istəməzdin. 100-ün içərisindən, heç olmasa, bir peşəkar, teatrsevər tapmaq olar bəlkə də.

– *Sizin bu optimizminiz səhrada bitən bir güldən bağça umacağıdır.*

– Bizim dövrümüzdə aktyorluq fakültəsinə 20 nəfər tələbə daxil olurdu və onlardan, heç olmazsa, üçdən ikisi təhsilini aktyor kimi başa vururdu. Onlardan yarısı peşəkar teatra gəlir və sənətkar olurdular. İndi həmin universitet səhnə üçün hər il onlarla kadr buraxsa da, bölgə teatrları peşəkar aktyor axtarır. Sual edirəm: hanı o kadrlar? Nə üçün bu kadrlar Bakıda qalıb tində-bucaqda, az qala it döyüşdürməyə razı olurlar, amma gəlib peşəkar teatrda sənət addımlarını atmırlar? Soruşuram o gənclərdən ki, niyə peşəkar sənətdən, teatrdan, səhnədən qaçırsınız?

– *Bəlkə bölgədə qalıb bir teatrın səhnə tozunu udmaqdansa böyük şəhəri, onun populyarlıq vədini, maddi təminatını düşünürlər...*

– Məgər o saxta, süni, heç kimə lazım olmayan populyarlıq sənətdən üstündür? Düz deyirsiz, Mədəniyyət və İncəsənət Universitetini bitirən gənc aktyorların çoxu gedib o operatorluğun, rejissorluğun ən sadə qayda-qanunlarını bilməyən həvəskarların, özfəaliyyət səviyyəsindəki rejissorların çəkdiyi seriallarda, filmlərdə oynayırlar, amma peşəkar teatra gəlmirlər. Çünki zəhmət çəkmək istəmirlər. Ay gənc aktyor, axı sən 4 il universitet oxumusan, heç olmasa, bunu nəzərə al. İldə bir dəfə hansısa üzdəniraq rejissorun səviyyəsiz filmində oynayıb hamıya özünü aktyor kimi sırıyacaqsansa, biz nə edək?

– *Teatrın, xüsusən bölgə teatrlarının hansı yolla olur-olsun, kadr təminatı olmalıdır. Gənclərin cəlbi üçün daha nə etmək olar?*

– Biz teatrda gənclər, həvəskarlar üçün studiya yaratdıq. Doğrudur, bölgədən xeyli istəkli teatr həvəskarları oldu. Amma burada təhsil, nəzəri biliklər də vacibdir və mən universitetin işini teatr-studiyasında qura, o gəncə nəzəri biliklər verə bilmərəm. Odur ki, bu gün region teatrlarının ən böyük problemi peşəkar aktyor sarıdandır. Universiteti qurtaranlar da gəlmirlər. Axı nəsil yenilənməli, truppa zəngin olmalıdır. Onlar isə gəlmirlər.

– *Mövzunu bir az da genişləndirək və nümunələr gətirək. Məsələn, bəzi ölkələrdə, elə qonşularımızda təyinat məsələsi həllə də qalır.*



– Bəli. Nəyi pisdir ki? Universiteti bitirən məzun təyinatla bölgə teatrlarına göndərilməli və heç olmasa, 4-5 il orada qalıb işləməlidir. Axı o tələbəni dövlət oxudub, ona dərs deyənlərə nə qədər məvacib verib. Deməli, elə təyinat da qüvvədə qalmalı və müəyyən müddət bölgə teatrları bu sistemlə aktyor truppasını zənginləşdirməlidir. Doğrudur, mənim deməyimlə bu məsələ həll olunan deyil və çox yəqin bizim bilmədiyimiz xeyli nüans var. Bütün hallarda bölgə teatrı aktyoru kimi mənim istəyim səhnəmizdə yeni, peşəkar, potensiallı gənc kadrları görmək, onlarla da işləməkdir. Doğrudur, konkret Lənkəran teatrının aktyor qıtlığı yoxdur. Bu problem peşəkar və paralel olaraq istedadlı həvəskarlarla həll olunur.

– *Pandemiyanın hamını çaşdırdığı ilk vaxtlar teatrların sayının çoxluğundan repertuarına qədər ən müxtəlif məqamlar müzakirə edildi. Yəqin az-çox sizin də xəbəriniz var və qocaman sənət adamı kimi münasibətiniz mənim üçün maraqlıdır.*

– Bu kimi fikirləri daha çox sənətə, teatra yad adamlar səsləndirirlər. Məhz o sözü deyən adamlara 50 aktyorun da maaşını versən, yenə ac olacaq. Çünki sənəti fikirləşmir. Teatr kütləvi sənətdir və onun var olduğu cəmiyyət sağlam düşüncəli olur.

– *Burada bir az mübahisə də yaranır. Məsələn, teatrın çağdaş həyatla səsləşmədiyini, günümüzü göstərmədiyini deyirlər.*

– Çünki günü özündə təmsil və təsvir edən əsərlər yazılmır, cəsarətləri yoxdur. Əvəzində mədhiyyəçiliyə gedirlər. Bu isə cəmiyyətin evini yıxan yoldur. Tənqid islah üçündür, düzəliş verməkdir, yol üstünə qoymaq üçündür və bundan qaçmaq özünə, xalqına xəyanətə bənzəyir.

– *Bu yerdə istərdim sükanı teatr tənqidinə və tənqidçilərinə tərəf döndərək.*

– Sözlərim onlara da aiddir. Dəfələrlə teatrşünaslarla söhbətlərim olub. Gəlirlər, baxırlar, yazırlar. Qeyd edirlər ki, bəs bu filan olmalı idi, amma olmadı. Soruşuram “Yaxşı, necə olmalıdır?” Deyir “Bilmirəm”. Əcəb işə düşdük. Yaxşı, necə olacağını bilmirsənsə, forman yoxdursa, nəyə əsasən düzgün olmadığını deyirsən? Əvvəl doğrunu tap, sonra mənim yanlışımı göstər.

– *Deyəsən, tənqidə açıq adam deyilsiz...*

– Niyə? Qətiyyən. Sadəcə mən düzgünlüyün tərəfdarıyam. İfa edən insana, şəxsiyyətinə yox, onun aktyor ifasına münasibət bildirməlisən. Belə olmaz axı. Yaxşı, məni sevmə, heç qəbul da eləmə. Amma aktyor kimi səhnədə baş verən proseslərə münasibətini sağlam, dürüst, peşəkar şəkildə bildir. Tənqid əsaslı olmalıdır və yol göstərməlidir. Əksini qəbul etmirəm. Bir yanlış başqa yanlışa aparır. Teatr tənqidçiləri məhz bundan qaçmalı və teatrı sevməlidirlər, fərdləri yox. Bir-iki aktyorun, rejissorun, dramaturqun yox, ümumən teatrın təəssübünü çəkməlidirlər. Məhz o zaman düzgün, savadlı fikir yürüdə bilərlər. Teatrşünas “bu dramaturq mənim dostumdur, tərifləməliyəm” deyirsə, bağışlayın, mən də “axı bunda təriflməli heç nə yoxdur, insafın olsun” deməliyəm. Əgər dramaturji materialda ictimai fikir yoxdursa, o əsər heç kimə lazım deyil. Hər hansı əsər mütləq tamaşaçını düşündürməlidir. Ən acı komediyalar da gülərək düşündürməlidir. Amma, çox təəssüf ki, biz bunun əksini görürük.

– *Çünki lağlağıdan, xınayaxdı səviyyəsindəki oyun üslubundan peşəkar səhnə işi düzəltmək istəyirik...*

– Belə burasındadır ki, biz boş-boşuna gülürük. Gülüş xatirinə gülmək özünü ələ salmaqdır, sadəcə. Gülüş ən böyük, güclü silahdırsa və sənin bu silahından açılan atəş hədəfə dəymirsə, xahiş edirəm, teatrın daşını at...

**Söhbətləşdi:**
**Həmidə NİZAMİQIZI**

№62 (1839)
20 avqust 2021
www.medeniyyet.az

## Elmi konfranslara tezis-məqalə qəbulu davam edir

**Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu tərəfindən sentyabrın 24-də "Nizami Gəncəvi və Şərq ədəbiyyatları: ədəbi təsirin hüdudları" mövzusunda keçiriləcək beynəlxalq elmi konfransa tezis qəbulu davam edir. Konfrans "Nizami Gəncəvi İli" çərçivəsində təşkil ediləcək.**

İnstitutdan bildirilib ki, tezislər konfrans-880@mail.ru ünvanına avqustun 31-dək göndərilməlidir. Məruzələrin tezisləri Azərbaycan, türk, rus, ingilis və ərəb dillərində qəbul edilir və bir səhifədən artıq olmamalıdır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tərəfindən noyabrın 24-də keçirilməsi nəzərdə tutulan "Milli-mədəni irsimiz: Aşıq Ələsgər yaradıcılığı" mövzusunda respublika elmi-nəzəri konfransına da tezis qəbulu davam edir. Universitetdən bildirilib ki, konfransda iştirak etmək istəyənlər tezislərini oktyabrın 10-dək admiu.meqale@yandex.ru elektron poçtuna göndərə bilərlər.

AMEA-nın Qafqazşünaslıq İnstitutu isə sentyabrın 24-də keçiriləcək "Cənubi Qafqazda ərazi-sərhəd dəyişiklikləri: tarix və müasirlik" mövzusunda respublika elmi konfransına məqalə qəbul edir.

Konfrans XIX əsrdə ermənilərin Cənubi Qafqaza köçürülməsi və ərazi dəyişiklikləri, 1918-1920-ci illərdə Cənubi Qafqazda ərazi-sərhəd məsələləri və Ermənistanın yaradılması, sovet dövründə ərazi-sərhəd məsələləri, 1991-ci ildən sonra Cənubi Qafqazda ərazi işğalları və nəticələri bölmələrini əhatə edəcək. İştirak etmək istəyənlər tezislərini sentyabrın 10-dək qafqazkonfrans2@gmail.com ünvanına göndərə bilərlər.

# Orta əsrlərin tanınmış musiqişünası

**Orta əsrlərdə Azərbaycanın ensiklopedik bilik sahibi elm adamlarından biri də musiqişünas alim Fətullah Şirvani olub. O, musiqi ilə bərabər riyaziyyat, həndəsə, astronomiya, coğrafiya, biologiya və ədəbiyyat sahəsində də böyük uğur qazanıb. Musiqi də daxil olmaqla bir sıra elm sahələrinə dair risalə və şərhləri ilə tanınıb.**

Fətullah Şirvani 1417-ci ildə Şamaxı şəhərində dünyaya göz açıb. İlk təhsilini atasından alıb. Ərəb və fars dillərini mükəmməl öyrənib. Sonra Şiraz, Səmərqənd və Tus şəhərlərində tanınmış elm ocaqlarında təhsilini davam etdirib, dövrünün görkəmli alimlərindən dərs alıb. 1435-ci ildə Səmərqəndə gedir və orada Qadızadənin yanında astronomiya, dilçilik və riyaziyyat haqqında biliklərə yiyələnir. 1440-cı ildə təhsilini başa vurub beş il Səmərqənd rəsədxanasında çalışır.

O, musiqi sahəsində də araşdırmalar aparıb, elmi əsərlər yazıb. Tədqiqatlarda göstərilir ki, alimin "Məcəllə fil-musiqa" ("Musiqi məcəlləsi" – musiqi məcmuəsi, toplusu) onun musiqi sahəsində məlum olan yeganə əsəridir. O, əsəri İstanbul fatehi II Sultan Mehmetə ithaf edib. Əsər müəllifin ensiklopedik biliyə sahib olduğunu göstərir. Əsərin günümüzə bir nüsxəsi gəlib çıxıb. İlk olaraq alman alimi Ekhard Noybauer (Eckhard Neubauer) əsəri aşkar edib. Fuad Sezgin isə 1986-cı ildə Almaniyanın Frankfurt-Mayn şəhərində əsərin faksimilesini alman şərqşünasın tədqiqatı ilə birlikdə nəşr edib. Əsərin 29 vərəqdən ibarət digər əlyazma nüsxəsi Hindistanın Rampur şəhər kitabxanasında qeydə alınıb. Şərqşünas E.Noybauer bu əsəri nöqsanlı hesab edib. O, nəşr edilən müqəddimədə F.Şirvaninin adının saxlanılması, Şamaxı şəhərində anadan



olduğu göstərilməsinə baxmayaraq, alimin əslən iranlı olduğunu iddia edib.

"Musiqi məcəlləsi" dövrünün çox qiymətli əsəri hesab edilib. Risalənin girişində müəllif əsərinin məqsəd və qayəsini orijinal bir şəkildə bildirib. İthaf etdiyi şəxsə (II Sultan Mehmet) müraciətini və mədhiyyəsini təqdim edib.

Sənətşünaslıq üzrə elmlər doktoru, akademik Zemfira Səfərova araşdırmasında yazır ki, əsər müqəddimə, iki hissə və yekundan ibarətdir. Hər hissə beş fəsildir. Birinci hissə – nəğmənin, yəni tonun tərifi və onun əhatə etdikləri haqqında, intervallar, intervalların toplanması, çıxılması, yarıya bölünməsi və ikiyə vurulması haqqında, cəmin – səslər sisteminin və kompozisiyanın uyumsuzluğunun (dissonanslığın) səbəbləri və nəhayət, ahəngdar kompozisiya haqqında fəsillərdən ibarətdir.

İkinci hissənin birinci fəsli dövrlər, ikinci fəsli dövrlərin, yəni muğamların təsirləri, doğurduqları ovqat və onların dinlənilmə vaxtları haqqında, üçüncü fəsli ritmin ("iqa"nın) tərifi və onun tərifindən irəli gələn məsələlər haqqında, dördüncü fəsil ritmin növləri, beşinci fəsil isə ritm dairələri haqqındadır.

F.Şirvani yazır: "Onu da bil ki, onlar nəğmələrin (melodiyaların) kompozisiyasının qurulmasından ("təlif"indən) və ritmindən bəhs etdikləri kimi, alətlərdən, o cümlədən də ud və bərbət adlı alətdən də bəhs etmişlər... Bu alimlər adıçəkilən alətlərin vəziyyətlərini, dastanlarının (pərdələrinin) nisbətlərini dərindən araşdırmışlar... Mən isə (bu məsələləri) araşdırmaqdan yayındım, çünki əksər halda çalıb-oxumaq və onları bilərəkdən dinləmək haramdır. Əgər belə olmasaydı, mən də bu məsələdə onların adəti üzrə hərəkət edər və musiqi bəhslərinə bir yeni şey artırar, həmin bəhslərin araşdırmalarının nəticələrindən faydalı olanlarını yazardım. Beləliklə, mən bu məsələdə bildirmək istədiklərimin sonuna gəlib çatdım".

F.Şirvani risaləsində ondan iki əsr əvvəl yaşamış Səfiəddin Urməvinin udun üzərində oktavaların və digər intervalların bölünmə cədvəlini təqdim edib. Məlumdur ki, F.Şirvaninin müasirləri XV əsrin böyük alimləri Əbdülqadir Marağayi, Əbdürrəhman Cami də udun araşdırılması ilə məşğul olublar...

Araşdırmada o da qeyd edilir ki, "Məcəllə" risaləsinin müqəddiməsi də bir neçə hissədən ibarətdir. Müqəddimədə musiqinin yaranması haqqında Orta əsr musiqi ədəbiyyatında əsərdən əsərə keçən rəvayət burada da nəql edilir. Risalədə riyaziyyat elminin əsasları, təlif (bəstəkarlıq) elminin qolları və s. məsələlər haqqında məlumat verilir. Bildirilir ki, riyaziyyatın əsasında dörd elm: həndəsə, astronomiya, ədəd (hesab), təlif elmləri durur.

Müqəddimədə verilən hekayətlərin birində deyilir ki, biri o birinə çoxdan kin bəsləyən iki şəxs içki məclisində bir araya gəlir. Şərab onları tutduğundan hər ikisinin kini qaynayır. Düşmənçilik yada düşür. Onlar bir-birinin üstünə atılırlar. Çalğıçı məharətli bir şəxs olduğundan melodiyanı düşmənçiliyi yatıran nəğmə ilə əvəz edir. Musiqinin təsirindən hər ikisinin ürəyi yumşalır. Tutduqları işdən peşman kimi qucaqlaşır və bir-birindən üzr istəyirlər.

Müqəddimədə verilən başqa bir hədis isə Quranın tilavəti, onun avazla oxunmasından bəhs edir: "Hər şeyin bir bəzəyi var, Quranın da bəzəyi gözəl səsdir"; "Quranı ərəb səsləri ilə oxuyun", "Quranı öz səslərinizlə bəzəyin, çünki gözəl səs Quranın gözəlliyini artırır" deyilir.

F.Şirvani "Məcəllə" əsərini ərsəyə gətirərkən İbn Sinanın yaradıcılığına, onun "Əş-şifa" əsərinə, Səfiəddin Urməvinin "Kitabül-ədvar" və "Şərəfiyyə" risalələrinə, Nəsrəddin Tusinin əsərlərinə və başqa görkəmli alimlərin irsinə müraciət edib. Onlardan yerli-yerində bəhrələnib, sitatlar gətirib.

F.Şirvani 1465-ci ildə Məkkəyə – həcc yolçuluğuna çıxıb. Səfər üstə iki il İraqda qalıb. 1467-ci ildə həcc ziyarətində olub. Sonra İstanbula gəlib və 1468-ci ildə oradan vətənə dönüb. 1486-cı ildə Şamaxı şəhərində vəfat edib.

**Savalan FƏRƏCOV**

# Nizami Gəncəvi fəlsəfi dünyasında insan amili və söz məfhumu

**İFTİXAR**
**Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

*(əvvəli qəzetin 18 avqust sayında)*

Məlum bir həqiqəti etiraf etməliyik ki, Nizami Gəncəvi saray şairiliyindən daim imtina etmişdir. Çünki saraydakıların səmimiyyəti onu heç vaxt qane etməmişdir. Bütün qeyri-insani münasibətlərin də ən çox məhz saraylarda yarandığını sezirdi və ədalətsiz hökmdarları ciddi tənqid atəşinə tuturdu. Buna baxmayaraq saray sahibləri Nizami Gəncəvi şəxsiyyətini və yaradıcılığını sarayda olan şairlərdən hər zaman üstün tutmuşlar. Dahi şairin yeri həmişə yüksəklərdə bərqərar idi. Nizami İnsan fenomeninin dəyərini anlatmaq üçün ən başlıcası hökmdarların ədalətli olmalarını istəyirdi. Haqlı olaraq düşünürdü ki, insanlıq hökm sahiblərində nə qədər güclü olsa və bütün amillərə kamil insan idrakı ilə yanaşsalar, dəyər versələr, cəmiyyət də bir o qədər asanlıqla tərbiyələnər, maariflənər və nəhayətdə əsas çoxluq sürətlə kamilləşə bilər. O öz hikmətli kəlamları ilə, əsasən, hökmdarları, ziyalı insanları örnək olmağa çağırırdı. İnsanlıq zirvəsinə yetişmək üçün daha ehtişamlı və mükəmməl yola daxil ola biləcək məkanın ocağına məhz seçilən insanların zəkasında işaran qığılcımlardan alov saça biləcəyini böyük poeziyanın və yüksək sənətin dili ilə ifadə edirdi. Belə düşüncə ilə yaşayan və yaradan şairin söz və poeziya qüdrətinin yükü, çəkisi bir tərəfə, onun insan və şəxsiyyət bütövlüyü əsas amil olaraq saray sahiblərinin həmişə ona hörmətlə yanaşmasını və beləcə, şairin nüfuz dairəsinin sürətlə genişlənməsini təmin edirdi. Saray şairlərinin hökmdarlar qarşısında başını dik tuta bilmədiyi, gözləri onların əllərindən atılacaq ənamlara dikildiyi halda, Nizami heç kəsə boyun əymirdi və heç kəsin ənamında da gözü yox idi. Buna rəğmən ən böyük mükafatlar da məhz Nizami Gəncəviyə verilmişdir. O öz incə ehtiramını göstərməklə yanaşı, özünün qürurunu da uca tuturdu. Şair "Böyüklə vuruşda insan ad alar, Alçaqla vuruşda özü alçalar" ideyası ilə yaşayır və bu düşüncəsi də Nizamini daim ucaldırdı. Çünki "Bacarsan hamının yükünü sən çək, İnsana ən böyük şərəfdir əmək" məntiqi və "Çalış öz xalqının işinə yara, Geysin əməlinlə dünya zərxara" fəlsəfəsi, türk oğlu olaraq onun ən böyük amalı idi və bu amalla da yaşamaq-yaratmaq, özünün sadə, məzmunlu həyatı və böyük yaradıcılıq məziyyəti ilə həm də öz simasında İnsan varlığını bütün dəyərlərdən yüksək tutmaq, "Hünər ardınca qoş, xalqa xeyir saç, Qapılar bağlama, ər ol, qapı aç" idrak məhsulunu sözün dərin fəlsəfi gücü və yüksək bədii poetikası ilə cəmiyyətə çatdırmaq, kamil insan yetişdirmək niyyətini, fikrini belə dolğun mahiyyətlə ifadə etmək, təlqin etmək Nizami Gəncəvi üçün həyat prinsipinin və bədii memarlıq ustadlığının rəhni idi. Ona görə də bu anda haşiyə çıxmağın, yazının əvvəlində qeyd etdiyim arayış barədə söz açmağın yerinə düşəcəyini zənn edirəm.

Araşdırmalarım zamanı təsadüf etdiyim, dəyərli ədəbiyyatşünasların nəzərindən kənarda qalmış çox önəmli, ciddi təəssüf doğuran vacib və həssas bir məsələ həyəcan siqnalı ilə fikrimi özünə cəlb etdi. Nizaminin axtardığı və ya yetişdirmək istədiyi kamil insan fenomeninin cahil hökmdarlar tərəfindən məngənə arasında necə amansızcasına saxlandığını sezdim.

Məlumdur ki, mənbələr yüz illərdir Nizami Gəncəvini fars dilində yazıb-yaratmış şair kimi təqdim edir. Əlimizdə olan bütün əsərləri də Nizaminin farsdilli şair olduğunu isbat edirmiş kimi göstərir. Lakin diqqətimi çəkən bir həssas məqam məni bu məsələ barədə düşünməyə və barışmamağa vadar edir. Hesab edirəm ki, dövrün tələbləri – həm o zamanlar fars dilinin geniş yayılması faktı, saraylarda əsasən fars dilinin üstün tutulması, həm də şairə verilən sifarişlərin məhz saraylardan gəlməsi, Nizamini əksər halda fars dilində yazmağa təhrik etmişdir. Ancaq bu o demək deyildir ki, Nizami farsdilli şairdir. Çünki onun bütün ruhu öz milli kimliyinə – türkçülüyünə köklənmişdi və bu əhval da bütün əsərlərində qabarıq şəkildə hiss olunur. Məsələyə bir qədər əhatəli, geniş arealda baxarkən düşünürsən ki, əcəba, "Divan"ından illər sonra qələmə aldığı ikinci poeması olan "Xosrov və Şirin" əsərində "Türklüyüm bu Həbəşdə heç getmir. Dadlı dovğaya xalq meyl etmir" və ya "Dağ kimi ucalmışdı bir zaman Türk dövləti" – deyə öz milli kimliyini uca tutan, həmişə geniş düşünən böyük insan və qüdrətli şair Nizami Gəncəvi heç mi öz ana dilində – doğma türk dilində bir qəzəl, qəsidə və ya rübai yazmamışdır? "Dadlı dovğaya xalq meyl etmir" – deyərkən, Nizami "Dadlı dovğa"nın türk dilində yazdığı incilər olduğunu nəzərdə tutmurmu?! Zənnimcə, bu sual onun həyatında baş vermiş, yaradıcılığında aydın şəkildə görünən, lakin araşdırmalar zamanı diqqətdən kənarda qalmış və ya ötəri baxılmış bəzi incə məsələlərdə öz cavabını tapır. Tapır və hətta aydın şəkildə özünü isbat edir ki, Nizami Gəncəvi farsdilli şair deyil, dövrün tələblərinə uyaraq ana dilindən başqa, daha çox fars dilində yazmış sənətkardır. Hətta düşünürəm ki, ərəb dilini də mükəmməl bilən dahi şair, mütləq, ərəb dilində də şeirlər yazmışdır. Çünki belə bir qüdrət sahibi olan mütəfəkkir şəxsiyyət heç ola bilməz ki, özünü hər cəhətdən ifadə etmək istəməyəydi. Nəzərə alsaq ki, dahilər əli çatan, ünü yetən ənginlikləri fəth etmək eşqi ilə yaşayırlar. Deməк ki, Nizami də mütləq özünün fatehlik qüdrətini sınaqdan keçirmişdir. Güman ki, Nizami türk, ərəb, fars dillərində yazıb-yaratmış, sadəcə türk və ərəb dillərində yazılanlar müxtəlif səbəblərdən günümüzə qədər gəlib yetişməmişdir.

Bütün bunlar bir sualdır və sualın öz cavabına aşağıdakı ehtimallarla həssascasına qovuşduğuna inandığıma görə, fikirlərimi geniş auditoriyada bölüşməyi doğru hesab edir və diqqətə alınmasını vacib sayıram.

Hesab edirəm ki, Nizami kimi nəhəng bir şəxsiyyəti, ana dili ilə yanaşı ərəb, fars dillərini dərindən bilən qüdrətli söz sərrafını farsdilli şair çərçivəsinə salmağın özü də cahil və ya kamil insan predmeti qədər dərk olunan və ya olunmayan bir müəmmadır. Qənaətimə görə, şairin "Divan"ının böyük çoxluğu türk dilində qələmə alınmışdır. Bu fikri aşağıdakı həqiqətlərlə təsdiq etməyin mümkün olduğunu zənn edirəm. Nizami Gəncəvi özü "Divan"ında və "Leyli və Məcnun" poemasında "Divan"ının sahibinin Şirvanşah I Axsitan (şəcərə etibarı ilə ərəb, bütün ruhu ilə fars sevdalı) olduğunu qeyd edir. Buradan belə bir nəticə çıxarmaq mümkündür ki, dahi şair öz "Divan"ını məhz böyük şeir həvəskarı olan və sarayında, M.Beyləqani və Ə.Xaqani kimi nəhəng söz sərrafları başda olmaqla, şairlər ordusu toplamış Şirvanşah I Axsitana göndərmişdir. Güman etmək olar ki, o da həmin qəzəl və qəsidələrin, eləcə də rübailərin, bəlkə başqa janrlarda da ola bilən şeir incilərinin böyük çoxluğunun məhz türk dilində yazıldığını görmüş, bu gerçəklik onu qane etməmiş və "Divan"da böyük çoxluğu təşkil edən türk dilində yazılmış şeirləri məhv etmiş, yalnız fars dilində olan hissəsini saxlamışdır. Ona görə də həmin "Divan" bütöv halda heç kəsin əlinə düşməmişdir. Çünki I Axsitan türk millətinə və türk dilinə öz nifrətini gizlətmirdi. Hətta Nizamiyə yazdığı sifariş məktubunda da bunu açıqca etiraf edirdi. Bəllidir ki, I Axsitan böyük şairə ərəb əfsanəsi olan "Leyli və Məcnun" hekayətini nəzmə çəkməyi sifariş etmiş və ən başlıca diqqətçəkən məsələ də odur ki, məktubda əsərin yalnız fars dilində yazılmasını tələb etmişdir. Sifariş məktubunda türk dili haqqında öz mənfi mövqeyini bildirməkdən də çəkinməmişdir. Nizami Gəncəvi "Leyli və Məcnun" əsərini qələmə alarkən özü əsərdə I Axsitanın ona yazdığı məktubu şərh etmiş və məktubdakı – "Türk dili yaramaz şah nəslimizə, Əskiklik gətirər türk dili bizə. Yüksək olmalıdır bizim dilimiz, Yüksək yaranmışdır bizim nəslimiz" kimi rəzil fikirlərini açıq şəkildə poemaya daxil etmiş, bununla da I Axsitan türkə və türk dilinə olan mənfi münasibətinin məxsusən tarixin səhifələrində saxlanmasını təmin etmişdir. Zənnimcə, bu nümunə tam isbat edir ki, Nizaminin türk dilində yazdığı şeirlərinin I Axsitan tərəfindən məhv edilməsi fikrinin ortaya çıxmasına heç bir şübhə ola bilməz. Çox haqlı olaraq sual doğur ki, əgər Nizami Gəncəvi yalnız fars dilində yazıb-yaradırdısa, bəs onda, durub-durarkən nə üçün I Axsitan Nizamiyə məhz türk dilinin yaramadığını ismarış edir və fars dilində yazmasını əsas şərt olaraq dilə gətirirdi?! Tarixə bu da məlumdur ki, Nizami Gəncəvi öz "Divan"ının sahibi hesab etdiyi I Axsitanın sifarişini öncə həyata keçirmək istəməmiş, sifarişi rədd etmişdir. Yalnız öz oğlu Məhəmmədin təkidi ilə "Leyli və Məcnun" adlı böyük sənət incisini ərsəyə gətirmişdir. Görünən odur ki, Nizami Gəncəvinin sifarişdən imtina etmə səbəbi, həqiqətən də, yalnız bir fakta bağlı ola bilərdi – o da, türk dilində yazılmama, fars dilində yazılma tələbinə. Əks təqdirdə şəxsiyyətinə böyük hörmətlə yanaşdığı, "Divan"ının sahibi adlandırdığı I Axsitanın sifarişini nəyə görə rədd etməli idi? Bu faktı hörmətli nizamişünasların əksəriyyəti öz tədqiqatlarında təsdiqləyirlər. Güman ki, I Axsitanın belə qeyri-insani münasibəti kamil insan formalaşdırmağa çalışan böyük şəxsiyyət və qüdrətli şairi hiddətləndirmiş, şeirə və şairlərə yüksək dəyər verən belə bir hökmdarın bu mövqeyini cahillik hesab etmiş, ona görə də onun sifarişini rədd etmişdir.

Bu faktlar tam olaraq sübut edə bilir və belə nəticə əldə etmək mümkündür ki, Nizami Gəncəvi öz ana dilində çoxlu sayda şeir nümunələri ərsəyə gətirmişdir! Çünki yuxarıda da qeyd etdiyimiz kimi böyük şairin, "Türklüyüm bu Həbəşdə heç getmir. Dadlı dovğaya xalq meyl etmir" – deyə qopardığı fəryad, onun milli dərdini, ağrısını ifadə edir və türk dilində qələmə aldığı sənət incilərinin meydanda yer ala bilməməsinə yanğı ilə münasibətini göstərir. Hətta "Divan" haqqında müxtəlif dövrlərdə yazılmış təzkirələrdə də "Divan"ın bütöv halda görünmədiyi açıq şəkildə bildirilir. O da bir həqiqətdir ki, Nizami "Leyli və Məcnun" poemasında türkçülüyünü və türkçülüyə bağlılığını çəkinmədən və prinsipial şəkildə ortaya qoymuşdur. Nizami yaradıcılığının tədqiqatçılarından Çingiz Sasanianın "Nizaminin "Leyli və Məcnun" poeması" adlı kitabındakı "...Axsitanı razı salmayan cəhət həmən "türki sifətlər" və "köhnə sözlər"dir..." kimi qeydləri, Aqafangel Krımskinin tədqiqatlarındakı "Nizami əsərinin türkobrazlılığı həqiqətdə Şirvanşah sarayının zövqünə uyğun olmamışdır" fikri və Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabındakı "...heç bir şairdə türklük Nizamidə olduğu qədər ideallaşdırılmayıb" kimi əlimizdə olan səhih fikirlər deyilənlərin isbatı hesab oluna bilər. Məhz əsərdəki türkçülük ruhu səbəbindən də I Axsitan, öz sifarişi ilə yazılmasına rəğmən, o böyük sənət incisini mükafatsız qoymuş, əsəri uzun müddət kənarda saxlamışdır. Hətta ehtimal olunur ki, şairin ölümündən sonra əsərdə müəyyən redaktə işləri də aparılmışdır. Ç.Sasanianın da dediyi kimi, üslub müxtəlifliyi, fəsillər arası əlaqəsizlik, mətləbdən kənara çıxmaq, əsərin ümumi ideyasına zidd olan beyt və şerləri poemanın Nizamidən zəif olan bir şair tərəfindən redaktə edildiyini isbatlayır. Sual doğur ki, mükəmməl bir sənət əsəri nə üçün redaktə edilməli idi? Cavab isə birdir – əsərdəki türk ruhunun ortadan götürülməsi və "köhnə sözlər"in, yəni türk etnosuna məxsus folklor nümunələrinin yox edilməsi. Bütün bu məqamlar birmənalı şəkildə isbat edir ki, şairin iyirmi min beytlik "Divan"ı I Axsitanın qərəzli qəzəbinə məruz qalmışdır. Bununla da həm belə insani hisslərdən kənar bədxahların canfəşanlığı, həm də o dövrdə poeziyanın ən çox fars dilində yazılmış nümunələrinin təbliği faktı və digər naməlum səbəblər Nizaminin türk dilində yazılmış əsərlərinin it-bat olmasına gətirib çıxarmış və böyük ehtimal ki, məhz ona görə də həmin əsərlər dövrümüzə qədər gəlib çıxmamışdır. Hər halda bu yanaşma mənim məntiqi nəticəmdir və bütün dəyərli nizamişünas alimlərimizi göstərilən problem ətrafında dərindən düşünməyə, həqiqətlərin aydınlaşması üçün gərgin əmək verməyə dəvət edirəm. Bu məsələnin həllinin bütün yaradıcılığında kamil insan formalaşdırmaq niyyətindən heç vaxt dönməyən və mütəfəkkir fikirləri, hikmətli kəlamları, müdrik aforizmləri və sözün poetik və fəlsəfi qüdrəti ilə cəmiyyəti daim saflaşdırmağa çalışan dahi şairimizin məfkurə xəzinəsi və söz dünyası üçün, eyni zamanda ölməz ustadın milli təəssübkeşlik mövqeyinin öz həqiqətinə qovuşa biləcəyi baxımından böyük töhfə ola biləcəyini zənn edirəm!

Dahi Nizami Gəncəvinin fəlsəfi aləmində, idrak dünyasında cərəyan edən və əsərlərində yer tutan "İnsandan insana fərq vardır, Bir dəmirdən həm nal, həm də qılınc düzəldilir" kimi zəngin tərbiyəvi kəlamlarından, ibrətli hikmətlərindən aydın şəkildə görünür ki, bəşəriyyətin canisi də, xilaskarı da məhz insandır və insan cahil olduqda dağıdır, kamil olduqda isə qurur və yaradır. Ona görə də dahi şair bütün yaradıcılığı boyu kamil insanın axtarışında olduğunu qırmızı xətlə tərənnüm edir. Nizamiyə görə, kainat bir insan əlində və ya bir kəlmə sözlə həm məhv ola, həm də çiçəklənə bilir. Bütün həyatını eşqlə və eşqə məftunluqla yaşamış, "Eşqdir mehrabı uca göylərin, Eşqsiz ey dünya, nədir dəyərin" möcüzəsini yaradan Şeyx Nizami Gəncəvi həyatın mənasını bütövlükdə eşqdə görür və odur ki, onun külliyyatına vaqif olarkən sezilən bir həssas incəlik sübut edir ki, Nizami öz ideyalarına eşqilə bağlı idi.

Tam əmin olduğum bir həqiqət vardır ki, ümumbəşəri mövzuları əhatə edən ölməz əsərlərində İnsan amilini və Söz məfhumunu zirvələrə yüksəldən, baş tacına çevirən, əsas qayə kimi ön plana çəkən dahi şair Nizami Gəncəvinin ədəbi xəzinəsi, yaradıcılıq qüdrəti öz cazibədarlığı, füsunkarlığı, rəngarəngliyi, əbədiyyəti ilə dünya dahilərinin yaratdıqları incilər sırasında həmişə yüksək məhəbbətlə bir Günəş kimi yaşayacaq və Azərbaycana, Azərbaycan xalqına daim qürur gətirəcək parlaq şölələri ilə üfüqlərdən alovlu şəfəqlər saçacaqdır.

## Nizami sözündən incilər

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Poladdan dağ olsa yenə də, inan,*
*Onu parça-parça dağıdar insan.*

**("Xosrov və Şirin")**

*Bağışla atını, sən get piyada,*
*Şillələr yesən də, mərd ol dünyada.*

**("Leyli və Məcnun")**

# Rahatlığa göz dikib oturmaq dinclik deyil...



*Hər kim toxum əksə şoranlıq çölə,*
*Bircə peşmançılıq gətirər ələ.*

**("Yeddi gözəl")**

*Bədgövər adamla aranı qatma,*
*Sən öz kimyanı küllərə atma.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Quruda, dənizdə kim çəksə zəhmət,*
*Balıqdan dürr alar, öküzdən sərvət.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

*Rahatlığa göz dikib oturmaq*
*dinclik deyil,*
*O, bu azca ömürlə ələ gəlməz,*
*düşün, bil.*

**("Sirlər xəzinəsi")**

# Nəşri əlli il gecikən toplu

## Ələkbər Əsgərovun balaban aləti üçün köçürmələri və işləmələri

Bu günlərdə "Azərbaycanın görkəmli nəfəs-çalğı alətlərinin virtuoz-novator ifaçısı Ələkbər Əsgərovun balaban aləti üçün köçürmələri və işləmələri" kitabı işıq üzü görüb. Nəşrin tərtibçisi və baş redaktoru mərhum balaban ifaçısının qızı, Azərbaycan Milli Konservatoriyası (AMK) Musiqi və tarixi nəzəriyyəsi kafedrasının doktorantı, Ərdahan Universitetinin (Türkiyə) müəllimi Mahirə Quliyevadır. Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Sənubər Bağırova kitaba ön söz yazıb.

S.Bağırova ön sözdə vurğulayır ki, bu toplu, əslində, əlli il bundan qabaq çıxmalı idi. Bu məcmuənin nə üçün yarım əsr unudulub qalması ayrı bir hekayətdir. Əgər musiqiçinin böyük qızı pianoçu Mahirə Quliyevanın iradəsi və əzmkarlığı olmasaydı, bu məcmuə ola bilər ki, heç vaxt işıq üzü görməzdi. Ələkbər Əsgərovun bu əməyinin dəyəri nədən ibarətdir? Və nə üçün onu öz dövründə, yeni çapa hazır olduğu yetmişinci illərdə nəşr etmək belə vacib idi?

2001-ci ildə UNESCO balabanı "duduk" adıyla bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsərləri siyahısına erməni musiqi aləti kimi daxil etmişdir. Bu alət Ermənistanda, həqiqətən də, populyardır, lakin Azərbaycanda olduğundan məşhur deyil. UNESCO-nun standartlarına görə, müəyyən bir mədəni hadisənin, abidənin və ya ənənənin hansısa bir xalqa mənsubluğu yalnız onun mənşəyi ilə deyil, necə deyərlər, "onun daimi yaşadığı ölkə" ilə, yəni onların həmin xalqın mədəni həyatında oynadığı əhəmiyyətlə, bu mədəni ənənənin xalq arasında varisliyi və onun inkişafının davamlılığı ilə müəyyən edilir. Ələkbər Əsgərovun əlyazmaları vaxtında nəşr olunsaydı, hələ yarım əsr bundan əvvəl balabanın Azərbaycan musiqisində oynadığı rol, Azərbaycan xalqının onunla bağlı mədəni və musiqi ənənələrinin tarixi varisliyindən xəbər verə bilərdi.

Ön sözdə qeyd olunur ki, Ələkbər Əsgərov Azərbaycan xalq musiqisinin şifahi repertuarında bu gün "əriyən" bir çox məşhur, tez-tez ifa olunan rəqs melodiyalarının və muğam rənglərinin müəllifidir. O, həmçinin, bu məcmuədə yerləşən bir çox əsərlərin – Azərbaycan və xarici bəstəkarların balaban üçün köçürmələrinin müəllifidir. Bu köçürmələr nəticəsində Ələkbər Əsgərov xalq nəfəs alətləri ifaçılarının ənənəvi repertuarının çərçivəsini xeyli genişləndirib, ona peşəkar Azərbaycan bəstəkarlarının (Üzeyir Hacıbəyli, Süleyman Ələsgərov, Cahangir Cahangirov, Ağabacı Rzayeva və b.) musiqisini, eləcə də rus, sovet və hətta Avropa bəstəkarlarının bir sıra əsərlərini daxil edib. Balabanda ifa olunan musiqinin repertuarının genişlənməsi, təbii ki, bu milli musiqi alətinin texniki və bədii imkanlarının daha da inkişaf etməsinə səbəb olub.




S.Bağırova daha sonra yazır: "Ələkbər Əsgərovun balaban üçün köçürmələri, təəssüf ki, onun bəstəkarlıq yaradıcılığı ilə eyni taleyi yaşadı: o öz köçürmələrini tələbə və həmkarları arasında səxavətlə bölüşürdü. Onun notları əllərdə gəzir və bu repertuar ümumi sərvətə çevrilirdi. Təəccüblü deyil ki, 1995-ci ildə ölümündən sonra onun not köçürmələrinin çoxu bəzi tələbələri tərəfindən tərtib olunmuş toplulara daxil edilmişdir. Lakin musiqiçi sağlığında da ağır zərbələrlə üzləşməli oldu: ona məxsus not köçürmələrinin əksəriyyəti, habelə yazdığı "Xalq nəfəs çalğı alətlərində çalğı məktəbi"ndən fraqmentlər və fotolar həmkarı Enok Köçərovun 1977-ci ildə nəşr etdiyi məcmuədə göründü. Nəşrə tövsiyə almaq niyyəti ilə Ə.Əsgərovun metod kabinetə gətirdiyi bu əlyazma qəribə bir şəkildə yoxa çıxdı. Bu əlyazmadan yalnız köçürmələr toplusuna öz əlilə yazdığı başlıq səhifəsi, notların özləri, həmçinin köhnə, çap maşınında yığılmış mətnin pərakəndə səhifələri və balabanın applikaturasının təsviri olan vərəq qorunub saxlanmışdır. Bu materiallar, həmçinin yenidən köçürülən notlar, musiqiçinin böyük qızının arxivində saxlanılır və məhz onun fəal iştirakı ilə indi bu məcmuə işıq üzü görür".

"Zərdabi nəşriyyat-poliqrafiya" MMC-də çap olunan kitabın elmi məsləhətçisi Əməkdar incəsənət xadimi, professor Lalə Hüseynova, rəyçiləri professorlar Vamiq Məmmədəliyev, Arif Əsədullayev, Abbasqulu Nəcəfzadə, İlham Nəcəfov, Əməkdar artist Şirzad Fətəliyev, texniki redaktoru Ərdahan Universitetinin müəllimi Yusuf Altundur.

**Lalə AZƏRİ**

# Nizami sözü – sənət nizamı



Bəşəriyyətin qiymətli varlığı olan insan doğulur və vəfat edir. Bu başlanğıc və sondur. Burada vacib məqam gördüyün işlər sayəsində qoyduğun imzadır. İmzası sayəsində zamansızlığa qovuşan şəxsiyyətlərdən biri də Nizami Gəncəvidir. Onun yaradıcılığı nəinki ədəbiyyata, həmçinin incəsənət sahəsinə də böyük töhfələr vermişdir. Şairin dürr sözləri, nəsihət dolu kəlmələri təsviri sənətimizin əvəzolunmaz koloritində, daş abidələrində də əksini tapmışdır.

Nizami Gəncəvinin "Xəmsə"sinin əlyazmaları XVI-XVII əsr miniatür sənətinin nadir incisi, qiymətli iftixarı sayılır. 1539-1543-cü il tarixli "Xəmsə" nüsxəsinin ən dəyərli illüstrasiyaları Soltan Məhəmmədin çəkdiyi miniatürlərdən ibarətdir. "Xosrovun Şirini çimərkən onu seyr etməsi", "Bəhram Gur şir ovunda" miniatürləri Soltan Məhəmmədin yaradıcılıq qabiliyyətinin əyani sübutudur.

"Şapur Xosrovun portretini Şirinə göstərir", "Xosrov Berbederin musiqisini dinləyir" adlı Mirzə Əli tərəfindən çəkilmiş miniatürlər onun mahir kolorit, boyakarlıq ustası olduğunun göstəricisidir.

Miniatür boyakarlığında janr ustadı sayılan Mir Seyid Əlinin "Xəmsə" nüsxəsindəki "Məcnun Leylinin çadırı önündə", "Bəhram Gur və Fitnə ovda" əsərləri onun səriştəli rəssam olduğunu bəyan edir.

Mir Müsəvvir tərəfindən "Sirlər xəzinəsi"nə çəkilmiş "Ənuşirəvan və bayquşların söhbəti", Ağa Mirəkin "Şapurun Arandan qayıtması", "Xosrov və Şirin qulluqçuların əhvalatlarını dinləyir" miniatürləri mahir sənətkarlıq qabiliyyətlərini təcəssüm etdirir.

Bu sənətkarların hər biri Təbriz miniatür məktəbinin baniləri olmaqla yanaşı Nizami irsinin də tədqiq olunması, öyrənilməsi baxımından böyük rola sahib olmuşlar.

Adları çəkilən miniatürlər dünyanın nüfuzlu muzeylərində və şəxsi kolleksiyalarında saxlanılır. Eyni zamanda Bakıda – Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Azərbaycan Milli İncəsənət Muzeyində, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda, Milli Azərbaycan Tarixi Muzeyində qorunan əlyazmalar da özünəməxsus cəlbediciliyi ilə gözoxşayan əsərlərdir.

Nizami muzeyindəki miniatürlərin əksəriyyəti sadəcə bir əlyazmanı bəzəməyib, müstəqil formalı qrafika nümunələridir. Zamanında ayrı-ayrı şəxslərdən satın alınaraq muzeyin fondlarına daxil edilmiş bir neçə miniatür "İsgəndərnamə" poemasına çəkilmişdir. "İsgəndərin müşavirəsi", "İsgəndərlə zahidin söhbəti", "Makedoniyalı İsgəndərin Nüşabənin sarayına gəlməsi" və s. belə nümunələrdəndir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat Muzeyinin ekspozisiyasında da Nizaminin əsərlərinə çəkilmiş miniatür illüstrasiyalar saxlanılır. Toğrul Nərimanbəyovun "Zalım şahla düz danışan qocanın hekayəti"nə çəkdiyi illüstrasiya, Tariyel Əliyev və Pərvanə Nuruyeva tərəfindən işlənmiş "Nuşirəvan və bayquşlar" epizodu, Əbülfəz Axundova aid "Fitnənin öküzü qaldırması", Əbülfəz Cabbarovun "İsgəndərin Nüşabə ilə görüşü" adlı lövhələri marağa səbəb olur.

Şairin yaradıcılığı irsi heykəltəraşlıq sənətimizə də möhürünü vurmuşdur. 1939-cu ildə N.Gəncəvinin abidəsi üçün müsabiqənin elan olunması bu baxımdan mühüm mədəniyyət hadisəsi idi. Müsabiqədə heykəltəraş Fuad Əbdürrəhmanovun əsəri qalib gəlir və paytaxtımızda şairin möhtəşəm abidəsi ucaldılır. Səkkizüzlü qırmızı qranit kürsü üzərində heykəl 8 tunc barelyefdən ibarətdir və eni bir metrə qədər olan qurşaqla dövrələnmişdir. Bunların yeddisinin üzərində Nizami "Xəmsə"sinin süjetlərinə aid şəkillər verilmişdir. Burada biz dağları yaran Fərhadın ("Fərhadın Bisütun dağını yarması"), sevgililər Leyli və Məcnunun ("Leyli və Məcnun mədrəsədə"), əjdaha ilə vuruşan Bəhramın ("Bəhramın əjdahanı öldürməsi"), bayquşların söhbətinə qulaq asan şahla vəzirinin ("Nuşirəvanın bayquşlarla söhbəti"), Nüşabə ilə İsgəndərin söhbəti ("İsgəndərin Nüşabə ilə görüşü") və poemalardakı digər obrazların təsvirlərini görə bilərik. Heykəlin kürsüsü zənginliyinə görə, doğrudan da, diqqətəlayiqdir. Gəncədə yerləşən Nizami məqbərəsinin yaxınlığında da şairin yaratdığı əsərləri tərənnüm edən tuncdan abidə yerləşir.



Dahi şairin ifadə etdiyi fikirlər, ədəbiyyata möhür vurmuş poeziyası təsviri sənətimizdə mirvari incisi kimi, bir naxış kimi nizam ilə, mütəşəkkil qaydada düzülmüşdür. Onun əsərlərindəki obrazların hər biri əsl həyat qaynağı, təcrübə, əsl dərs mənbəyidir. Bu əsərlərə çəkilmiş miniatürlər, illüstrasiyalar, yaradılmış barelyef nümunələri hər dəfə yeni təqdimatda qarşımızda durur. Bütün bu əsərlər incəsənətlə poeziyanın vəhdəti kimi tamaşaçını yeni biliklər, kəşflər qarşısında bir daha dayanmağa sövq edir. Əlvan kolorit, kompozisiya quruluşu, məkan mühiti şairin əsərlərini bizə təsviri sənət dili ilə oxumağa şərait yaradır. Gecə də, gündüz də parlayan bu ulduzun – Nizami dühasının işığında hələ uzun əsrlər yeni-yeni əsərlər, təsviri sənət nümunələri meydana gələcək.

**Aynurə MURADZADƏ**

## Xatirə təqvimi — 20–24 avqust

### Azərbaycan

**20 avqust 1901** – Məşhur xanəndə, Xalq artisti Xan Şuşinski (İsfəndiyar Aslan oğlu Cavanşirov; 1901 – 18.3.1979) Şuşada doğulub. Muğamlarımızın bənzərsiz ifaçısı olmaqla yanaşı, "Şuşanın dağları", "Məndən gen gəzmə", "Ay gözəl" və s. mahnı və təsnifləri bəstələyib.

**20 avqust 1912** – Görkəmli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Niyazi (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə; 1912 – 2.8.1984) anadan olub. "Xosrov və Şirin" operası, "Çitra" baleti, "Zaqatala süitası", "Rast" simfonik muğamının müəllifidir.

**20 avqust 1926** – Filosof, şair, tərcüməçi, Əməkdar elm xadimi, akademik Aslan Məhəmməd oğlu Aslanov (1926 – 23.8.1995) Qazax rayonunda anadan olub. Dövlət İncəsənət Universitetinin rektoru olub, "Qızlar və bənövşələr", "Nəğməli günlərim" və s. şeir kitablarının müəllifidir.

**20 avqust 1929** – Azərbaycanda diktorluq məktəbinin banilərindən biri, Əməkdar artist Aydın Çingiz oğlu Qaradağlı (1929 – 28.1.1980) anadan olub. 1946-cı ildən Azərbaycan Radiosunda çalışıb.

**20 avqust 1932** – Ədəbiyyatşünas, yazıçı İslam Məmməd oğlu Ağayev (1932 – 27.1.2014) Bakının Bülbülə qəsəbəsində anadan olub.

**21 avqust 1930** – Tanınmış ədəbiyyatşünas, akademik, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Bəkir Əhməd oğlu Nəbiyev (1930 – 15.3.2012) Ağdaş rayonunun Üçqovaq kəndində doğulub. AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru işləyib.

**21 avqust 1951** – Əməkdar artist Təvəkkül Əjdər oğlu Əliyev (1951 – 22.1.2017) anadan olub. 1973-cü ildən Lənkəran Dövlət Dram Teatrında fəaliyyət göstərib, filmlərdə çəkilib.

**22 avqust 1922** – Mədəniyyət xadimi Adelaida İrza qızı Məmmədova (1922 – 25.4.2015) Tiflisdə doğulub. Azərbaycan peşəkar vokal sənətinin banisi Bülbülün ömür-gün yoldaşı olub, Bülbülün memorial muzeyinin direktoru işləyib.

**22 avqust 1978** – Tanınmış rəssam Həsən Əli oğlu Haqverdiyev (1917–1978) vəfat edib. II Dünya müharibəsinin iştirakçısı olub, əsirlik, sonra Sibirdə sürgün həyatı yaşayıb. Rəngkarlıq və qrafika əsərlərinin müəllifidir, teatr tamaşalarına səhnə tərtibatı verib.

**23 avqust 1922** – Tarixçi alim, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü Ələvsət Nəcəfqulu oğlu Quliyev (1922 – 6.11.1969) anadan olub. Tarix İnstitutunun direktoru işləyib.

**23 avqust 1943** – Görkəmli aktyor, Xalq artisti Şahmar Zülfüqar oğlu Ələkbərov (1943 – 12.8.1992) anadan olub. "Dağlarda döyüş", "Yeddi oğul istərəm", "Qatır Məmməd", "Arxadan vurulan zərbə" və s. filmlərdə çəkilib. "Sahilsiz gecə", "Qəzəlxan" filmlərinin quruluşçu rejissorudur, filmlərin səsləndirilməsində iştirak edib.

**24 avqust 1896** – Sənətşünas alim Məhəmməd Ağaoğlu (1896-1949) İrəvan şəhərində anadan olub. 1920-ci ildə Türkiyəyə, oradan Amerikaya mühacirət edib. Miçiqan Universitetində dərs deyib, "İslam incəsənəti" jurnalının redaktoru olub.

24 avqust 1926 – Əməkdar incəsənət xadimi, bəstəkar, musiqi redaktoru Nazim Ağalar oğlu Əliverdibəyov (1926 – 16.2.1985) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub. "Mingəçevir" simfonik poeması, "Cırtdan" nağıl-operası və s. əsərlər, filmlərə musiqi yazıb.

**24 avqust 1990** – Əməkdar mədəniyyət işçisi, aşıq Əkbər Zərbalı oğlu Cəfərov (1933-1990) vəfat edib. Tovuz rayonunun Bozalqanlı kəndində doğulub. "Leyli və Məftun" dastanının, çoxsaylı şeirlərin müəllifidir.

### Dünya

**20 avqust 1847** – Polyak yazıçısı Boleslav Prus (əsl adı Aleksandr Qlovaski; 1847–1912) anadan olub. "Kukla", "Firon" və s. romanların müəllifidir.

**20 avqust 1901** – İtalyan şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1959) Salvatore Kvazimodo (1901–1968) anadan olub. "Həyat yuxu deyil", "Qənirsiz yer" kitablarının müəllifidir.

**21 avqust 1871** — Rus yazıçısı Leonid Andreyev (1871–1919) anadan olub. Rus ədəbiyyatında ekspressionizmin banisi sayılır. Əsərləri: "İuda İskariot və başqaları" (roman), "Savva", "Bizim həyatın günləri" (pyes) və s.

**21 avqust 1925** – Fransız kinorejissoru Moris Piala (Maurice Pialat; 1925–2003) anadan olub. Filmləri: "Çılpaq uşaqlıq", "Lulu", "Şeytanın günəşi altında" (Kann festivalının qalibi, 1987), "Van Qoq" və s.

**22 avqust 1862** – Fransız bəstəkarı Klod Debüssi (Achille-Claude Debussy; 1862–1918) anadan olub. Əsərləri: "Pelleas və Melizanda" (opera), "Oyunlar" (balet), "Bahar" (simfonik süita) və s.

**22 avqust 1920** – Amerikalı fantast-yazıçı Rey Bredberi (Raymond Douglas Bradbury; 1920–2012) anadan olub. Əsərləri: "Mars xronikaları", "Farenqeytlə 451 dərəcə", "Fələkət gəlir" və s. romanların müəllifidir.

**23 avqust 1851** – Çex yazıçısı Alois Yirasek (1851-1930) anadan olub. "Yan Qus" trilogiyası, "Yan Jijka" və s. tarixi romanların müəllifidir.

**23 avqust 1880** – Rus yazıçısı Aleksandr Qrin (Aleksandr Qrinevski; 1880-1932) anadan olub. Əsərləri: "Al yelkənlər", "Dalğalar üzərində qaçan", "Qızıl zəncir" və s.

**24 avqust 1899** – Argentina yazıçısı və şairi Xorxe Luis Borxes (Jorge Luis Borges; 1899-1986) anadan olub. Əsərləri: "Alef", "Yaradan", "Uydurmalar" və s.

**24 avqust 1903** – İngilis rəssamı və dizayneri Qrehem Vivian Sazerlend (Graham Vivian Sutherland; 1903-1980) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## Mədəniyyət və incəsənət sahəsində ikinci ali təhsil imkanı

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) 2021-2022-ci tədris ilində müvafiq ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün qəbul keçirəcək.

ADMİU-dan bildirilib ki, aktyor sənəti, bədii yaradıcılıq və ekran dramaturgiyası (ssenarist), dekorativ-tətbiqi sənət (bədii xalça, bədii toxuculuq), dizayn (geyim dizaynı, interyer dizaynı, sənaye dizaynı, qrafik dizayn), instrumental ifaçılıq (fortepiano, skripka, viola (alt), gitara, klarnet, saksofon, zərb alətləri), xalq çalğı alətləri ifaçılığı (tar, kamança, saz, qanun, nağara, balaban), musiqişünaslıq, muzey, arxiv işi və abidələrin qorunması ixtisasları üzrə qəbul elan edilir.

Qəbul, həmçinin operator sənəti, populyar musiqi və caz ifaçılığı (estrada sənəti), qrafika, rejissorluq, rəngkarlıq, sənətşünaslıq (səhnələr üzrə), təsviri sənətin tarixi və nəzəriyyəsi, teatrşünaslıq, kinoşünaslıq, vokal sənəti (xanəndə), musiqi müəllimliyi, təsviri incəsənət müəllimliyi, kitabxanaçılıq və informasiya fəaliyyəti, sosiologiya, sosial iş, turizm bələdçiliyi, turizm işinin təşkili ixtisasları üzrə aparılır.

Qeyd olunan ixtisaslar üzrə tədris əyani formada həyata keçiriləcək. Tədris Azərbaycan və rus dillərində aparılır.

Ətraflı məlumatı ADMİU-nun saytından əldə etmək olar.

# “Düşüncələri birləşdirək, daha yaxşı gələcək quraq”

## “Dubay EXPO”sərgisində ölkəmiz də təmsil olunacaq



Dünyanın ən böyük sərgisi olan EXPO-ya bu il Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhəri ev sahibliyi edəcək. EXPO-nun əsas dünya sərgisi beş ildən bir təşkil edilir, həmçinin 2-3 ildən bir ixtisaslaşmış EXPO sərgiləri keçirilir. Dünya sərgisinə ev sahibliyi etmək Olimpiya Oyunları qədər nüfuzlu hadisə sayılır.

Dubay sərgisi keçən il açılmalı idi, lakin COVİD-19 pandemiyası səbəbindən təxirə salınmışdı. Oktyabrın 1-də açılışı nəzərdə tutulan “Dubay EXPO 2020” sərgisinin Yaxın Şərq ölkələri üzrə ən yaxşı pavilyonları təqdim edilib.

Ev-sahibi Birləşmiş Ərəb Əmirliklərinə məxsus pavilyon qanadını açmış şahin formasındadır və onun dizaynına 7 ay vaxt sərf olunub. Pavilyonun sahəsi 15 min kvadratmetrdir. Binanın içərisində BƏƏ-nin tarixinə aid interaktiv panellər quraşdırılıb.

Səudiyyə Ərəbistanının pavilyonu sahəsinə görə üçüncü yerdədir. Ümumilikdə 13 min kvadratmetr sahəsi olan bu unikal binada 68 kvadratmetrlik LED ekran quraşdırılıb, həmçinin divarlarda ölkənin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş 14 məkanı əks olunacaq.





İsrail pavilyonunun divarları səhranın rəmzi olan qum dənələri ilə işıqlandırılıb, burada 630 kvadratmetrlik LED işıqları olan panellər quraşdırılıb. Sahəsinə görə birinci yerdə olan bu pavilyonun (15 min kvadratmetr) hündürlüyü 15 metrdir.

Küveyt pavilyonunun ümumi sahəsi 4450 kvadratmetrdir. Bu bina xüsusi arxitektura dizaynı ilə fərqlənir. Küveyt pavilyonunda da əsas elementlər səhra qumu, həmçinin onun üzərindəki şəlalədir.

Təqdimat mərasimində Misir və Omanın da pavilyonları nümayiş etdirilib.

Qeyd edək ki, “Dubay EXPO”-da Azərbaycan pavilyonu Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə təmsil olunacaq. Azərbaycan pavilyonu bu il iyunun 25-də Heydər Əliyev Mərkəzində keçirilmiş mərasimdə təqdim edilib.

Azərbaycan pavilyonunun komissar müavini Nərmin Carçalova bildirib ki, ölkəmiz “Milan EXPO 2015”dən bu yana öz milli pavilyonu ilə bütün EXPO tədbirlərində iştirak edib. Azərbaycan “Dubay EXPO 2020” sərgisində iştirakla bağlı təsdiqini verən ilk ölkələrdən biridir. 2017-ci ildən başlanılan pavilyonun tikintisi artıq yekunlaşmaq üzrədir.

Azərbaycan pavilyonunun direktoru Rüstəm İbrahimovun sözlərinə görə, mədəni diplomatiya, əməkdaşlıq əlaqələri qurmaq, digər ölkələrdə potensial turistlərlə, biznes tərəfdaşları və investorlarla dialoq yaratmaq üçün “Dubay EXPO 2020”də iştirak böyük önəm kəsb edir. Ölkəmizin beynəlxalq sərgilərdə iştirak təcrübəsini, o cümlədən son illərdə Milan, Antalya və Astanada keçirilən sərgilərində milli pavilyonla uğurla təmsil olunmasını nəzərə alsaq, budəfəki pavilyonumuzun da ziyarətçilərin böyük marağına səbəb olacağı gözlənilir.

Ərazi baxımından “Dubay EXPO” indiyədək təşkil olunan ən böyük sərgidir. Sərginin 400 hektardan çox ərazisi var. “Düşüncələri birləşdirək, daha yaxşı gələcək quraq” mövzusunda keçirilən beynəlxalq sərgidə 190 ölkə təmsil olunacaq. 2022-ci il martın 31-dək davam edəcək sərginin ərazisi tematik olaraq 3 hissəyə bölünür: davamlılıq, mobillik və imkan. Azərbaycanın pavilyonu “davamlılıq” bölümündə yerləşir.

Azərbaycan sərgidə “Gələcəyin toxumları” mövzusu ilə təmsil olunacaq. Bu mövzu yaşadığımız dünyanın və mühitin dayanıqlı inkişafda yeganə yolunun gələcəyə sərmayə yatırımlarına bağlı olduğunu vurğulayır. Pavilyonun konsepsiyası dəyişikliyin subyekti və obyekti, təşəbbüskarı və əsas aparıcı qüvvəsi olan insan kapitalını əks etdirir. Üçmərtəbəli, ağac və onun budaqları formasını xatırladan pavilyonumuzun konsepsiyası təsdiq edir ki, yalnız insan kapitalının inkişafı ilə dayanıqlı gələcəyə nail olmaq mümkündür.

# “Ata yurdumuzdan gələn sevgi selinin axmasını diləyirik”

## Ankarada Türkmənistanın mədəniyyət və incəsənətinə həsr olunmuş sərgi

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un üzvü olan beş keçmiş sovet respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Türkiyədə silsilə tədbirlər davam edir. Avqustun 16-da Ankarada, Türkiyə Milli Kitabxanasında təşkil olunan növbəti tədbir Türkmənistana həsr olunmuşdu.

TÜRKSOY, Türkmənistanın Ankaradakı Səfirliyi və Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlığı ilə gerçəkləşən tədbirdə Türkmənistanın mədəniyyət və incəsənət nümunələri, bu ölkənin tarixi-mədəni irsini və müasir inkişafını əks etdirən fotolar nümayiş olundu.





Açılış mərasimində çıxış edən Türkiyə mədəniyyət və turizm nazirinin müavini Serdar Çam sərginin Türkiyənin və ata yurdu Orta Asiya və Türkmənistanın böyük bir ailə olduğunu göstərən faktor olduğunu ifadə etdi: “Ata yurdumuzdan gələn sevgi selinin axmasını diləyirik. Əbədi yaşamaq və bu prosesi davam etdirmək üçün hamımız bir-birimizə kömək etməli, birlikdə çalışmalıyıq”.

Nazir müavini Türkmənistanın TÜRKSOY-da qurucu ölkə olaraq gördüyü işlərdən qürur duyduqlarını da dilə gətirdi.

Türkmənistanın Ankaradakı səfiri İşankuli Amanlıyev isə çıxışında mədəniyyət və incəsənət sahəsinin də ölkəsinin xarici siyasətində əhəmiyyətli bir yer tutduğunu bildirdi: “Xalqımızın mədəni dəyərlərini və milli irsimizi bugünkü şərtlərdən yenidən yoğurmaqla müasir şəkildə işıqlandırırıq. İnkişaf prosesimizdə əhəmiyyətli bir faktor olan mədəniyyət sahəsi, bir tərəfdən yeni dövrün tələblərinə cavab verir, digər tərəfdən Türkmənistanın sosial-iqtisadi inkişafı üçün əhəmiyyətli bir potensial təqdim edir”.

TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı türk respublikalarının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Türkiyənin şəhərlərində keçirilən müxtəlif tədbirlərin, səyyar sərgilərin əhəmiyyətindən söz açdı.

Çıxışlardan sonra Türkmənistanla bağlı fotoşəkillər, türkmən rəssamlarının rəsmləri, türkmən mədəniyyətinə aid geyim və əşyalardan ibarət sərgiyə baxış keçirildi.

**Mehparə SULTANOVA**
**Ankara**

# 12 yaşdan yuxarı vaksinsiz giriş qadağandır

## Nyu-Yorkda vaksinasiya barədə mandat qüvvəyə minib

ABŞ-ın Nyu-York şəhərinin yeni peyvənd haqqında mandatı çərşənbə axşamı qüvvəyə minib. Mandata əsasən, bundan sonra restoran, idman və əyləncə mərkəzləri və digər müəssisələri ziyarət edən 12 yaşdan yuxarı bütün şəxslərdən COVİD-19 əleyhinə vaksinasiya barədə sənəd tələb olunacaq.

Şəhər rəsmiləri bildirib ki, qayda qüvvəyə minsə də, sentyabr ayının 13-dək tətbiq olunmayacaq. Bundan sonra qaydalara riayət etməyən müəssisələr cərimələnəcək.

Mətbuat konfransında Nyu-York Bələdiyyəsinin başçısı Bill de Blazio restoran və əyləncə yerlərinin əksəriyyətinin yeni qaydaları dəstəklədiyini və ziyarətçilərinin və işçilərinin təhlükəsizlikdə olmasını istədiklərini qeyd edib.

Respublikaçı liderlərdən ibarət bir qrup mandata etiraz olaraq mitinq keçirib. Lakin ABŞ-da bu fikir getdikcə güclənir. Nyu-York mandatını elan edəndən sonra Nyu-Orlean və San-Fransisko oxşar planları açıqlayıb, Los-Anceles isə oxşar tədbirləri nəzərdən keçirir.

# Türkiyədə Mərmərə zəlzələsinin qurbanları anılıb

Türkiyədə 22 il əvvəl baş vermiş dağıdıcı zəlzələnin acıları yaddaşlardan silinmir. 1999-cu il avqustun 17-də mərkəzi Kocaeli vilayətinin Gölcük rayonu olmaqla Türkiyənin Mərmərə bölgəsində baş vermiş 7.4 bal gücündə zəlzələ nəticəsində rəsmi rəqəmlərə görə 17 min 480 nəfər həlak olmuşdu.



Faciənin qurbanlarının xatirəsinə ehtiram olaraq Kavaklı məhəlləsi sahillərində anma mərasimi təşkil olunub. Mərasimdə zəlzələ qurbanlarının ruhuna dualar oxunub.

Qeyd edək ki, bu yeraltı təkan Türkiyə ərazisində tarix boyu meydana gələn ikinci ən güclü dağıdıcı zəlzələ olaraq qiymətləndirilir. Həm əhali sıxlığı, həm də iqtisadi baxımdan Türkiyənin əhəmiyyətli bölgəsinə – Kocaeli, İstanbul, Yalova və Sakarya vilayətlərinə təsir edən 17 avqust zəlzələsi nəticəsində 285 min ev ağır zədələnmiş, 133 mindən çox evin çökməsi nəticəsində təxminən 600 min insan evsiz qalmışdı.

# Pikassonun 104 milyon dollarlıq əsərləri hərracda

Dünya şöhrətli ispan rəssamı Pablo Pikassonun (1881–1973) Las-Veqas (ABŞ) şəhərindəki bir restoranda 20 il asılı qalan əsərləri oktyabr ayında hərraca çıxarılacaq.



Rəssamın hərraca çıxarılacaq 11 əsərinin ümumi dəyəri 104 milyon dollardan çoxdur.

Qeyd edək ki, Pablo Pikassonun ən məşhur əsərləri sırasında “Avinyonlu qızlar” və “Gernika” əsərləri xüsusi yer tutur. Pikassonun yaradıcılıq bacarığı özünü rəssamlıq, heykəltaraşlıq və dizaynla yanaşı, digər çoxsaylı təsviri və tətbiqi incəsənət sahələrində də göstərib. Rəssamın yaradıcılıqda çevriliş etmiş nailiyyətləri ona dünya şöhrəti və həyatı boyu sərhədsiz uğurlar gətirib.

# 44 günlük Vətən müharibəsinin silahları

## İstanbul sərgisində Azərbaycanın stendinə xüsusi maraq var

Xəbər verildiyi kimi, İstanbulda avqustun 17-də işə başlayan “İDEF – 2021” Beynəlxalq Müdafiə Sənayesi Sərgisində Azərbaycan da təmsil olunur. Sərgidə ölkəmizin stendi xüsusi maraq doğurub.




Ölkəmiz bu il sərgidə 44 günlük Vətən müharibəsində istifadə olunan silahları da nümayiş etdirir. Builki məhsullar arasında yeniliklərdən biri də snayper tüfəngidir ki, onu digər silahlardan fərqləndirən xüsusiyyəti iki min metr məsafədə hədəfi vurur və adi snayper silahlarından fərqli olaraq güllə deyil, mərmi atır. Mərmi iki min metrlik məsafədə on metrlik radiusda hədəfi tamamilə məhv edir.

Bundan əlavə, sərgidə Azərbaycan stendində müxtəlif çaplı toplar, silahlar, əl qumbaraları, kombinə olunmuş döyüş patronları və digər döyüş ləvazimatları sərgilənir.

“İDEF – 2021” sərgisi avqustun 20-də başa çatacaq.

# Azərbaycan Rəngkarlıq Muzeyində sərgilər davam edir

YARAT Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə Azərbaycan Rəngkarlıq Muzeyində açılan sərgilər yay rejimində fəaliyyət göstərir.

YARAT-dan bildirilib ki, sərgi ilə tanış olmaq istəyənlər çərşənbə axşamı və bazar günü olmaqla saat 12:00-dan 20:00-dək bələdçi ilə sərgiyə baxış keçirə bilərlər. Eyni zamanda saat 21:00-dan 22:00-dək sərgiyə sərbəst (bələdçisiz) baxmaq mümkündür.

Qeyd edək ki, hazırda Azərbaycan Rəngkarlıq Muzeyində Rəşad Ələkbərovun “Özünsən!” solo sərgisi, “XX əsrin son çiçəkləri: Y nəsli” qrup sərgisi, eləcə də “Öz adanı kəşf et” adlı sərgi ziyarətçilər üçün açıqdır.

# UNESCO-dan Əfqanıstandakı mədəni abidələrlə bağlı çağırış

UNESCO dünya təşkilatlarını Əfqanıstanda mədəni abidələri qorumağa çağırıb. Bu barədə təşkilatın mətbuat xidmətindən Tom Malar xəbər verib.



“UNESCO Əfqanıstanda baş verən hadisələri diqqətlə izləyir və heyətin təhlükəsizliyini qorumaq üçün Birləşmiş Millətlər Təşkilatının tabeliyində olan agentliklərlə öz hərəkətini nizamlayır”, - deyə o bildirib.

Təşkilatın rəsmisi qeyd edib ki, Əfqanıstan ərazisində yerləşən zəngin mədəni irs dünya ictimaiyyəti üçün xüsusi dəyərə malikdir və bu irs qorunmalıdır.

Qeyd edib ki, söhbət ilk növbədə Kabildə yerləşən Əfqanıstan Milli Muzeyindən, Qəznidəki İslam Sənəti Muzeyindən, Cem minarəsindən, həmçinin Bamiyan vadisindəki digər arxeoloji tapıntılardan gedir.

**CAVİD**

# İnternetdə sürətimiz

## Dünyada neçənci yerdəyik?

Bu ilin iyul ayında Azərbaycanın mobil rabitə operatorlarının şəbəkələrində giriş internet trafikinin sürəti 37,24 Mbit/s təşkil edib.

“Speedtest Global Index”in məlumatları əsasında aparılan hesablamalara görə, bu göstərici iyun ayı ilə müqayisədə 0,3% artıb. İyulda ölkənin mobil şəbəkələrində çıxış trafikinin sürəti iyun ayının göstəricisi ilə müqayisədə 2,5 azalaraq 14,59 Mbit/s olub.

Dünya üzrə mobil trafikinin giriş və çıxış sürəti isə müvafiq olaraq 55,07 Mbit/s və 12,35 Mbit/s təşkil edib. İyul ayının nəticələrinə görə, Azərbaycan bu göstərici üzrə 139 ölkə arasında 66-cı yeri tutub.

Mobil internet sürətinə görə liderlərin ilk üçlüyünə Birləşmiş Ərəb Əmirliyi (190,03 Mbit/s), Cənubi Koreya (189,20 Mbit/s) və Qətər (170,77 Mbit/s) daxil olub.

Reytinqə əsasən, bu ilin iyul ayında Azərbaycanda stasionar genişzolaqlı internet trafikinin giriş sürəti 24,08 Mbit/s, çıxış sürəti isə 25,96 Mbit/s təşkil edib. Bu göstəricilər iyun ayı ilə müqayisədə müvafiq olaraq 5,9 və 5,2% azalıb. İyul ayının nəticələrinə görə, sabit internetin sürəti reytinqində Azərbaycan 180 ölkə arasında 1 pillə geriləyərək 123-cü yerdə olub.

Dünyada ən sürətli sabit interneti olan ilk üç lider ölkə Monako – 256,70 Mbit/s, Sinqapur – 256,03 Mbit/s və Honkonq (SAR) - 248,59 Mbit/s olub. İyulda qlobal sabit internetin giriş və çıxış trafikinin orta sürəti isə müvafiq olaraq 107,50 Mbit/s və 58,27 Mbit/s təşkil edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1541

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.